Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Xalqın həbibi və təbibi – Abbas Səhhət

**Abbas Səhhətin 145 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Xalqın həbibi və təbibi – Abbas Səhhət:** Uşaq kitabxanalarında Abbas Səhhətin yaradıcılığını gənc kitabxanaçılara, oxuculara çatdırılması məqsədilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS - nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt. ed. R.Məmmədli ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. – Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2019. – 58 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçidən

"Vətəni sevməyən insan olmaz, olsa da, ol şəxsdə vicdan olmaz" sözlərinin müəllifi – Mehdizadə Abbas Əliabbas oğlu gözəl şair, dövrünün maraqlı dramaturqu, dünya ədəbiyyatından dilimizə çevirdiyi nümunələri bu gün də köhnəlməmiş tərcüməçi, ədəbiyyatımızın romantizm cərəyanının parlaq nümayəndəsi idi. Abbas Səhhət Azərbaycan xalqının bədii təfəkkürünə qüvvətli təsir göstərib, orada özünə möhkəm yer tutan, XX əsr şeirinə yeni xüsusiyyətlər gətirən görkəmli şairlərdəndir. Abbas Səhhət XX əsr Azərbaycan klassiklərindən biri, ədəbiyyatımızda romantizm cərəyanının görkəmli nümayəndələrindəndir. O, ədəbiyyat və mədəniyyət tariximizə məşhur şair, peşəkar tərcüməçi, uşaq yazıçısı, həkim, görkəmli müəllim və maarif xadimi, tənqidçi və publisist kimi daxil olmuşdur. Köhnə dünyanın zülm və haqsızlıqlarına, ictimai bərabərsizliyə qarşı etiraz, azadlıq və mədəni intibah ideallarının tərənnümü, işıqlı gələcəyə çağırış - A.Səhhətin həyat və yaradıcılığının ümumi mənasını, ideya-estetik məzmununu təşkil edir. A.Səhhətin Azərbaycan maarifi və uşaq ədəbiyyatının inkişafındakı xidmətləri də böyükdür. Cavan yaşlarından ömrünün sonuna qədər müəllimlik edən, dərsliklər yaradan şair uşaq və gənclər üçün müxtəlif janrlarda əsərlər yazmış, milli uşaq ədəbiyyatının ən gözəl nümunələrini yaradan klassiklər səviyyəsinə yüksəlmişdir. Bəli, Abbas Səhhət realizm yaradıcılıq metodunun təsiri ilə yazıb-yaradan romantiklərimizdəndir. Şair Sabirin sənət dünyasından ilham alaraq yeni əsrin əvvəllərində Azərbaycanda yaranan qabaqcıl ideyalı ədəbiyyatın görkəmli nümayəndələrindən idi.

Uşaq kitabxanalarına təqdim edilən bu vəsaitin yazılmasında əsas məqsəd Abbas Səhhət sənəti, şeir qüdrəti haqqında müasirlərimizlə edilən maraqlı bir müsahibə, onun zəngin yaradıcılığını oxucularımıza çatdırmaqdır.

## Həyat və yaradıcılığı

Azərbaycanda XX əsrin əvvəlinin ədəbi-bədii tufanı, onun həm realist, həm də romantik dalğada qabaran, öz içərisindən aşıb-daşan narahat nəhri məhz Səhhətin poeziyasında durulmuşdur. Sözün əsl mənasında "millilik" və "millət" anlayışı, "Ana dili və Vətən" məfhumu müasirləri və qələm dostları arasında məhz Abbas Səhhətin zəngin ədəbi – elmi irsində bu qədər aydınlıq kəsb etmişdir. Öz "mən"inin obrazını özü yaradan, öz tərcümeyi-halına özü ayrıca şeir həsr edən Səhhətin yaradıcılığının əsas motivləri bəşəriyyətə məhəbbət, elmə meyil, sənətə pərəstişdir. Bəli, A. Səhhətin özünəməxsus orijinal manerası vardır. O hər sözü, hər vurğunu yerli-yerində işlətməyi bacaran sənətkardır. Səhhət özünü uşaqlara öyüd-nəsihət verən mürəbbi kimi deyil, yaxın yoldaş, tərbiyəçi kimi təqdim edir. Şair uşağa yanaşmağı bacarır, onun qəlbinə yol tapır. Bunların nəticəsidir ki, Səhhətin şeirləri oxucunu düşündürür, təsirləndirir və ona estetik zövq verir.

Abbas Əliabbas oğlu Mehdizadə (Abbas Səhhət) 1874-cü ildə Şamaxıda ruhani ailəsində dünyaya göz açmışdı. 1900-cü ildə Tehran Universitetinin tibb fakültəsini bitirən, rus, ərəb, fars və fransız dillərini mükəmməl bilən gənc Abbas 1901-ci ildə Şamaxıya qayıdır və həkimlik etməklə yanaşı məktəblərdə Azərbaycan dilindən dərs deyir. Məhz bu dövrdən etibarən yaradıcılığa başlayır və artıq 1903-cü ildən məqalələri "Şərqi-Rus" qəzetində çap olunur. 1905-ci ildə "Yeni poeziya necə olmalıdır?" adlı məqaləsi, daha sonra "Poetik nitq", "Azadlığa mədhiyyə", "Oyanışın səsi" şeirləri işıq üzü görür. "Yeni üslublu məktəblər" ideyasının qızğın tərəfdarı və təbliğatçısı olan A.Səhhət, professor Əli bəy Hüseynzadənin banisi olduğu Azərbaycan romantik ədəbiyyatı cərəyanına

qoşulur. Həmin dövrdə Bakıda nəşr olunan bir çox jurnal və qəzetlərdə mütəmadi çıxış edib. Tərcüməçilik fəaliyyəti ilə də məşğul olan yazıçı Lermontov, Puşkin, Krılov, Maksim Qorki, Viktor Hüqo və digər şair və yazıçıların əsərlərini azərbaycan dilinə çevirir. 1912-ci ildə şairin şeirlərindən ibarət "Sınıq saz" və Avropa şairlərindən tərcümə etdiyi "Qərb günəşi" adlı şeirlər toplusu işıq üzü görür. Bir qədər sonra "Əhmədin şücaəti" adlı poeması, 1916-cı ildə isə "Şair, muza və şəhərli" adında romantik poeması nəşr olunur. A. Səhhətin yaradıcılığında Nizami, Hafiz, Sədi kimi şairlərin böyük təsiri duyulur. A.Səhhət türk xalqlarının ədəbiyyatları ilə də yaxından maraqlanır, xüsusilə Tofiq Fikrət yaradıcılığına rəğbət bəsləyirdi. Dövri mətbuatdakı çıxışları arasında böyük Azərbaycan şairi, əziz dostu və məsləkdaşı M.Ə.Sabir haqqında məqalələri xüsusi yer tuturdu. A.Səhhət Azərbaycanda liberal burjuaziya ideyasını müdafiə edir, İslam dəyərlərindən imtinaya qəti etirazını bildirir və əsərlərində "ümummüsəlman qərbçiliyi" ideyasını dəstəkləyirdi. O adam xoşbəxtdir ki, sözünü və əməlini, qəlbini və zəkasını xalqının tərəqqisinə, onun hərtərəfli inkişafına həsr edə bilir. Belə adam on illərlə, yüz illərlə nəsillərin, vətən övladlarının xatirəsində yaşayır, bəzən isə milli sərhədləri aşaraq yer üzünün bütün xalqlarının ürəyinə, zehninə yol tapır. A. Səhhət 1918-ci ildə Gəncədə vəfat edib. Səhhətin ölümündən keçən onilliklər təsdiq edir ki, o, xalqının belə unudulmaz, fədakar oğullarından biridir. Səhhət – bu həqiqi, ehtiraslı bir istedad, böyük vətəndaşlıq ideallarının həyata keçirilməsinə həsr olunan bir həyat deməkdir. Səhhət – bu xalq, vətən yolunda yorulmadan çalışmaq arzusu, coşub-daşan, qarşısı alınmayan bir qüvvət, həvəs, energiya deməkdir. Səhhət – insanların azadlığı və qardaşlığı haqqında mahnı və düşüncədir.

## II. Yubiley tədbirlərinin keçirilməsi

Bu il parlaq bədii istedada malik söz sənətkarı, ədəbiyyatımızın tarixində özünəməxsus layiqli yeri olan Abbas Səhhətin 145 yaşı tamam olur. Yubiley münasibəti ilə respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Tədbiri keçirmək üçün kitabxana məktəblərlə, ali təhsil ocaqları ilə əməkdaşlıq etməlidir. İlk olaraq kitabxanada Abbas Səhhətin yubileyi ilə bağlı kitab sərgisinin keçirilməsi vacibdir. Sərgidə Abbas Səhhətin özünə məxsus müdrik kəlamları, görkəmli şəxsiyyətlərin onun haqqında söylədiyi fikirlər, indiyə qədər çap olunmuş kitabları, onun haqqında şair və yazıçıların yazdığı əsərlər ilə yanaşı, dövri mətbuatda da yer alan materialların nümayişi nəzərdə tutulmuşdur. Sərgiyə dövri mətbuatda çap olunan məqalələrin kartotekasını, şair haqqında çəkilmiş sənədli və bədii filmlərin video-yazılarını, kaset və disklərini də əlavə etmək olar. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər: *“Uşaqları sevindirən, böyükləri düşündürən şair” “Vətənə, millətə sədaqət nümunəsi”, “Ölməz əsərləri ilə ölümsüzlük zirvəsini fəth edən Abbas Səhhət”, “Xalqın həbibi və təbibi – Abbas Səhhət”, “Ədəbiyyatımızın böyük dostu”, “Qüdrətli ədəbiyyatşünas Abbas Səhhət”, “Elm və irfan sahibi”, “Mənəvi sərvətimiz Abbas Səhhət”, “Xalq sənətinə bağlı şair”, “Söz sərrafı Abbas Səhhət” və s.*

## *Kitab sərgisi*
























**Abbas Səhhətin müdrik deyimlərindən**

Məsləkim tərcümeyi halımdır,
Lütfi-həqq qayeyi-amalımdır.

Dünya gör-götür dünyasıdır. Biz gördüklərimizi götürsək, nə eybi var? ...

...Bu dünyanı biz lisanımız vasitəsilə öyrəndik, dilimiz vasitəsilə tərbiyə tapdıq. Onu sevməmək olarmı?...

***

Şişə çəksəz də diriykən ətimi,
Atmaram mən vətənü millətimi.

***

Sabir şeir və şairə qiymət qoyan bir nəfəri görməklə (F.Köçərli nəzərdə tutulur - K.T.) bu tarixdən ciddən çalışmağa başlayır.

***

Beş ilin müddətində, o, ədəbiyyatımızda böyük bir inqilab yaratdı... köhnə şeirlə yeni şeir arasında bir əsrlik qədər uçurum açdı ki, geri dönməyə kimsədə cürət və cəsarət qalmadı.

***

Sabir öldü demirəm, şeir evi viran oldu.

***

Sabir əsərlərində işlətdiyi ibarələr və yeni məzmun kimsəni təlqin deyil, məhz öz fikirlərinin nəticəsidir. Sabir göz yaşlarının arasından gülən Qoqoldan ziyadə Saltıkova bənzəyir.

Mən müəllimlik etməklə öz xalqımın ən ağır xəstəliyini, onun savadsızlığını müalicə edirəm.

***

Qanuni-həyatdır, yaşamaz cahil olan qövm.

***

İstərəm qaçmaq, lakin yük ağır, yol da yoxuş,
Nasıl uçsun qanadı sınmış, əzilmiş bir quş?

***

Şüərayi-sabiqəmizin əşar və ədəbiyyatının təbii əhvala muğayir olduğundan oxuyan kəslərə kəsalət və nifrət gətirməyi, heç bir surətdə insan üçün mərifət və ibrət dərsi ondan hüsula gəlmədiyi məlumdur.

***

Bir xalqı çökdürmək üçün onu silahla, top-tüfənglə qırmağa ehtiyac yoxdur. Daha rahat yol var – savadsızlıq. Bütün addımlar cəmiyyətin savadsız olması üçün atılarsa, təhsil pula çevrilərsə savadsızlıq çoxalar, mütaliə azalar. Zəkalı, ziyalı insanlara hörmət və rəğbət azalar. Lazımsız və yersiz zarafatlara gülüş çoxalar və ehtiyac artar.

***

Nəğmə, vəzn, sözləri kökləşdirir, ürəyə qədər nüfuz edir və bu vasitəilə şagirdlərdə əxlaqi və vətənpərvərlik duyğuları oyadır.

***

Elm, hər kəs yiyələnmək istəsə onundur. Bu mətləb məni vadar etdi ki, Qərb ədəbiyyatından bəqədri-qüvvə öz dilimizə tərcümə etməklə əhalimizi onların asarına aşina edim. Tainki o şümusi-elm və ürfanın ənvari-əşüəsilə bizim də zülmətdə qalan duyğularımız işıqlansın... şairlərimiz onlara nəzirə yazmaqla

yeni-yeni, gözəl-gözəl əsərlər meydana gətirsin və bununla bizim də ədəbiyyatımız dövlətlənsin və tərəqqi etsin.

***

Edadi məktəblərdə ana dilinin məqulanə qayda təhtinə alınması sair dərslərdə və şagirdlərin istedadlarının artmasına səbəb ola bilər və mütəllimlərin əqli və zehni səviyyəsini yüksəltməyə mucib olar.

***

Əfradi-millətdən hər kəs gərək öz öhdəsinə düşən vəzifəni ifa etməkdə qeyrət göstərsin... bu əsri-hazırda, millətlərin çarpışdığı bu zamanda boş oturub quru bir istimdad ilə vaxt keçirmək məsiyətdir. Yaşamaq istəyirsən, gərək çalışalım... cəmiyyətlər təşkil edəlim; avam kütlənin başını bir yerə toplamağa, ümumi ruhu yeniləşdirməyə çalışalım.

***

Burada zənni-acizanəmə görə vəzifənin ən ağırı, ən zəhmətli hissəsi el müəllimlərinin öhdəsinə düşür. Hamıdan artıq gərək onlar ciddi surətdə işə girişsinlər, əzm göstərsinlər, təpərli olsunlar. Qonşu millətlərin müəllimləri necə ciddi-cəhd ilə çalışırlarsa, necə qeyrət göstərirlərsə, biz də onlardan ibrət dərsi alalım.

***

İndi nə etməli? Zənni-acizanəmə görə indi istirahəti millətə fəda etməliyik. Hürriyyət və məşrutiyyət babına sadə və asan bir dil ilə camaata bəyanat vermək, əmnü asayişi bərpa etmək, hürriyyətin möhkəm və payidar olması xüsusunda təlqinat və təbliğatda bulunmalıdır. Durmaq vaxtı deyil, işləmək, çalışmaq vaxtıdır.

***

Şeirin, sənətin qarşısında böyük ictimai vəzifələr durur. Odur ki, biz daha rindanə yazmamalıyıq, xalqın dərdlərinə, ehtiyaclarına

biganə qalmamalıyıq. Zəhmətə qatlaşmalı, çətinliklərdən çəkinməməliyik.

***

Ey xalqın bərgüzidə alimləri, ey millətin möhtərəm müəllimləri! Ümidi-istiqbal sizədir. Millətin göz dikəcəyi sizlərsiniz. Qoşunuz millətin imdadına, qoşunuz... Millətin səviyyəyi-fikriyyəsini yüksəltməyə, balaları pərvaz etməyə çalışınız... Təlimləriniz ilə cahanın çöhrəsini sizlər dəyişdirə bilərsiniz, ey müəllim əfəndilər.

***

Bizdə milliyyət uyğusu olur. Hər şeydə avropalıları təqlidən bütün varlığımızı unutmağa, hürriyyəti-milliyəmizi qeyb etməyə mayilik. Məsum balalarımızı hələ göz açmamış xarici mürəbbiyələrə təslim edirik. Bədbəxt balalarımızın dünyanı bilməmişdən, tanımamışdan ruhunu zəhərləyib öldürürük... Çünki insanın həqiqi ruhu dəyanət və milliyyətdir. O zəhərləndikdən sonra, o məhv olduqdan sonra yerdə nə qalır? Ruhsuz bir qəlb, cansız bir cəsəd.

***

Şair dövrünün ayinəsidir. O, əldə alət ola bilməz.

***

Yazı yazdığımız vaxt hər şeydən müqəddəm hissiyyata tabe olmaq gərək, tainki kəlamın oxuyanların qəlbində təsiri ola və başqasının hissiyyati-qəlbiyyəsini oyandıra. Bu surətdə hissiyyatı bilmək lazımdır. Hissiyyat iki növdür: cəli və təbii. Hissiyyaticəliyyənin kimsəyə təsiri ola bilməz. Hissiyyati-tərbiyədir ki, başqasına təsir edə. Yazılmış şeirlərin məzmunları bir levhəyinəqqaş kibi tamam nuqat və dəqayiqi-mətləbi bəyanə gətirə.

***

Bəzi cənablar qəzetdə yazılan ibarələrin çətinliyini bəhanə edirlər. Ay gözəlim! Tutalım ki, sən deyəndir. Qəzetlərimizin mübarizələri sənin idrakından üstündür. Hə, “Molla Nəsrəddin” jurnalının dili ki, lap asandır, kor da oxuya bilər. Bəs onu cığazı nə üçün alıb oxumursunuz?..

***

Dəyişməkdir tərəqqinin əsası.

***

Ürəfamızdan milli adətlərimizi həmişə nəzərdə tutmaqların təmənna edirəm, bunlarsız millət yaşamaz.

***

“Molla Nəsrəddin” meydana çıxınca artıq hər sahibi-zövq Sabir əfəndinin ondakı nümuneyi-əşarına məftun olmaqdan kəndini alamadı. O gözəl şeirləri oxuyub da anlayanlar, o gözəlliklərin zövqünə, fərqinə varanlar onları hifz etməyə həvəs etdilər. Şairlərimiz, yaxud mütəşairlərimiz o şiveyi-müstəhsəndə yazmağa, təqlidə başladılar. Daha bilmərrə köhnə üslub tərk olundu.

***

Lazımınca ana dilini bilməyən bir coçuq hökümət dilini öyrənə bilməz. Nə fayda ki, el müəllimləri adlanan zatların əksəri ana dilinə əsla rəğbət və məhəbbət etməyirlər, istər evlərində, istər məktəblərində ana dilinə dair bir vərəq-para olsun, bulundurmayırlar. Hətta bəziləri var ki, bu dəyərli ada, bu ehtiramlı mövqeyə əsla istehdadları yoxdur.

***

İndi gəl belə adamlar üçün həqqi-səy elə, zəhmət çək, axırda bu da aldığın muzd. Doğrusu bizim müsəlmanlar üçün müəllim olmaqdan çətin əzab olmaz. Çalış, vuruş, zəhmət çək, əziyyətdə qal, buna yalvar, ona yalvar, bunun üçün iş düzəlt, axırda razılıq

əvəzinə söyüş eşidəcəksən. Ayə, bilmirəm nə vaxt xeyir və şərimizi qoyub, dost və düşmənimizi tanıyacağıq.

***

Yazmaq bir fikrə möhtac isə, tərcümə etmək iki fikrə möhtacdır...

***

İş yalnız dil bilməklə, müəllimləri fəallaşdırmaqla bitmir. Bununla yanaşı, xalqın mənəviyyatını, hissiyyatını tərbiyə etmək, adətlərini öyrənmək, bir sözlə, onu milli zəmində inkişaf etdirmək lazımdır. Başqa millətlərə aludə olmaq yox, onlardan öyrənmək lazımdır. Öz qədrini bilməyənin qədrini özgə heç vaxt bilməz.

***

Mükəmməl bir dil zəmanəmizdəki dəhşətli silahlardan ən qiymətlisidir. Hər klassikin üslubu onun şəxsiyyətidir.

***

Nə gərəkdir yazasan faidəsiz nəğmə, qəzəl,
Yoxmu könlündə məgər gizli böyük milli əməl.

***

Mədəni millətlərdə gördüyümüz böyük fədakarlıqlar bütün uşaqlarda öyrədilmiş bu kimi nəğmələrin, şərqilərin nəticəsidir.

***

Ayıl, ey ümməti- mərhumə, ayıl!
Ayıl, ey milləti- mərhumə, ayıl!
Oyan, ey milləti-əziz, oyan!
Sənə vabəstədir nicatı vətən

## Görkəmli şəxsiyyətlər, elm və mədəniyyət xadimləri Abbas Səhhət haqqında

Səhhət əfəndinin tərcümədə daha artıq məharət və istedadı olduğu üçün rus ədiblərindən "İkinci Jukovski" deyə bilərik. Belə ki, cavan şairimizin "Məğrib günəşləri" əsərində rus məşhur şüərasından - Puşkin, Lermontov, Nikitin, Krılov və bir çox başqa şüəralardan etdiyi tərcümələr əsli ilə müvafiq olmaqla bərabər, çox da şayani-təqdirdir.

***

Səhhət olduqca həssas, şən və kövrək qəlbə malik bir şair idi. Ən kiçik, şən bir hadisə onda böyük bir sevinc doğurduğu kimi, ən əhəmiyyətsiz, həzin bir lövhə və hadisə də onda acı düşüncə, kədər və ruh sıxıntısına səbəb olurdu. Mühüm bir faciə isə onun bütün varlığını sarsıda bilirdi.

**Abdulla Şaiq,**
*şair-dramaturq*

"Ölürsəm qəm etmərəm. Çünki bilirəm siz mənim asarımı təb etdirərsiniz" sözləri ilə öz əsərlərinin gələcək taleyini A.Səhhətə tapşırmışdı. Sabirin sağlığında nail olmadığı arzusunu Səhhət böyük çətinliklərdən, bir neçə dəfə Bakıya gəlib getdikdən sonra müəllim Mahmud bəy Mahmudbəyovun köməkliyi ilə yerinə yetirə bilir. Sabirin əsərləri "Hophopnamə" adı ilə 1912- ci ildə nəşr olunur.

***

Salman Mümtazın Sabirlə söhbətinin bir yerində belə sual cavab vardır:
"Sual - Abbas Səhhətin necə yaşı vardır?
Siz böyüksünüz, yoxsa o?
Cavab - Başda o böyükdür, yaşda mən.

Sual - Səhhət dərin savadlımıdır?
Cavab - Mən onun şagirdiyəm, o mənə ustaddır.”

**Mirzə Ələkbər Sabir,**
*şair, satirik*

Bu müdhiş, bu qorxunc vəlvəleyi-hadisat içində şair-təbib Abbas Səhhət də sükunətgahi-əbədiyyətə çəkilib getdi. Həm maddi, həm də mənəvi xadimi-millət olan Səhhət qardaşımızın üfuli-əbədisindən hənuz Qafqasiya türklərinin xəbəri yoxdur.

**Məhəmməd Hadi,**
*şair*

Abbas Səhhət dövrünün çox az yazarlarından olub ki, hər iki – həm romantik, həm də realist ədəbi məktəbin nümayəndəsi kimi Azərbaycan ədəbiyyatında, mətbuatında, ədəbi mühitində tanınıb, oxunub, sevilib və yaddaşlarda həkk olunub... Abbas Səhhət romantiklər arasında məktəb, tərbiyə ilə ən çox bağlı olan şairdir... Səhhətin fikrincə, müsəlmanlar ona görə geri qalmış, qapaz altına düşmüşlər ki, ehkami-dini pozdular, şəriəti düz yerinə yetirmədilər.

**Mir Cəlal,**
*professor*

Abbas Səhhətin yaradıcılığı, əsərlərinin ideya-siyasi istiqaməti, romantikasının xüsusiyyətləri onun yaradıcılığının “ruh etibarilə Lermontova yaxın” olduğunu göstərir.

**Məmməd Arif,**
*akademik*

Səhhətin gözəl uşaq şeirləri yetmiş ildir ki, dərsliklərimizin səhifələrindən düşmür, bu gün də məktəblilərimizin dilinin əzbəridir. Abbas Səhhətin şair, tərcüməçi, ictimai xadim, həkim,

müəllim kimi gördüyü işləri, xalqa etdiyi xidmətlərin on illik ümumi mənzərəsinə nəzər saldıqda heyrətə gəlir, inanırsan ki, o, bu illərdə xalqın mədəni inkişafı üçün əlindən gələn hər şeyi etmiş, heç bir fədakarlıqdan çəkinməmişdir. İnanırsan ki, o, çoxcəhətli yaradıcılığında və fəaliyyətində yalnız bircə məqsəd düşünür:

Fikrimiz tərbiyeyi-millətdir,
Qəsdimiz millətə bir xidmətdir.

**Abbas Zamanov,**
*Azərbaycan EA-nın müxbir üzvü, professor*

Abbas Səhhət yaradıcılığının ideya-istiqamətindən bəhs edərkən, onu "istismarçı siniflərə qarşı fəhlə və kəndliləri müdafiə edən" bir şair kimi dəyərləndirirəm.

**Cəfər Xəndan,**
*professor*

Səhhət sözü ilə işi bir olan xadim idi. Xalqa məktəb lazım idi – onlar da açdılar. Xalqa yeni teatr lazım idi – yaratdılar, hətta qadın rolunu da bir müddət özləri oynadılar. Xalqa tibbi yardım lazım idi – göstərdilər. Kitab lazım idi – yazdılar. Qəzet jurnal lazım idi – çıxartdılar…

**Əziz Mirəhmədov,**
*Azərbaycan EA-nın müxbir üzvü*

Abbas Səhhət dönə-dönə deyirdi ki, hər xalqı, onun başqa xüsusiyyətləri ilə yanaşı, onun dili təmsil edir. Odur ki, bizə tapşırırdı ki, çalışın ana dilini yaxşı öyrənin, bu sizin vətəndaşlıq borcunuzdur. Lakin bu da azdır. Hərtərəfli inkişaf etmiş ziyalı, mütəxəssis və sənətkar olmaq üçün rus dilini də yaxşıca və mükəmməl öyrənməlisiniz. Bu sözlər indi də öz əhəmiyyətini və təravətini itirməmişdir.

***

Abbas Səhhət bizə təkcə savad öyrətmirdi. O, yeri düşdükcə xalqımızın, vətənimizin keçmişindən çox maraqlı və qiymətli məlumat verərdi. Tez-tez Nizaminin dərin və mənalı fikirlərindən bəhs edərdi. Azərbaycan, Babək, inqilab sözlərini biz ilk dəfə Abbas Səhhətdən eşitmişik.

**Azad Əfəndizadə,**
*akademik*

Abbas Səhhətin ədəbi yaradıcılığının mühüm bir sahəsini uşaqlar üçün yazdığı əsərlər təşkil edir. On beş ilə qədər müəllimlik etmiş Səhhət yalnız məktəbdə deyil, ədəbi yaradıcılığında da bir müəllim olmuşdur. Onun uşaq və gənclər üçün yazdığı bir çox lirik şeirlər, səhnə əsərləri və təmsillər təlim-tərbiyə işinə kömək etmişdir. Bu əsərlərin müəllifi Azərbaycan uşaq ədəbiyyatı tarixinə parlaq səhifə yazmış Sabir və Mirzə Cəlil, Şaiq və Süleyman Sani kimi qələm yoldaşları ilə birlikdə bu ədəbiyyatı çox əsrlik inkişafında yeni, yüksək pilləyə qaldırmışdır.

***

Səhhətin məktəbyaşlı uşaqlar və gənclər üçün yazdığı əsərlərdə ictimai məzmun daha qüvvətlidir. Vətən məhəbbəti, maarifə, elmə çağırış bu əsərlərin əsas məzmununu təşkil edir. Şair hər nədən yazır yazsın, qarşısına nə kimi tərbiyəvi bir məqsəd qoyur qoysun, onu vətən məhəbbəti ilə, elm və maariflə əlaqələndirir.

**Kamal Talıbzadə,**
*akademik*

Hər şeydən çox Abbas Səhhətin tərcümələri məndə böyük təsir yaratdığından rus ədəbiyyatına qarşı qüvvətli bir həvəs

duydum. Mən rus şairlərini oxumağa başladım. Tərcüməçilik həvəsinin məndə oyanması belə oldu.

**Məmməd Rahim,**
*Xalq şairi*

Məşhur tatar satiriki Sabirin yaxın dostu və onun birinci (hələlik yeganə) bioqrafı olan Səhhət ən yeni tatar şeirinin parlaq nümayəndələrindən biri idi. Gözəlliyə və ülviyyətə pərəstiş, xeyirxahlığa və yaxşılığa xidmət, maarif və azadlığa məhəbbət, hər cür təzyiq və cəhalətə nifrət onun şeirinin əsas istiqamətini təşkil edirdi. Mərhumun bütün əsərlərində bir səmimilik vardı. Bəşəriyyətə məhəbbət, elmə meyl, sənətə pərəstiş – Səhhət şeirinin əsas motivləridir. Əgər o, bu ideyaların ilk carçısı deyilsə də, onların həmişə sadiq və ehtiraslı pərəstişkarı olmuşdur. Cavan şairə rəhmət!

**Eynəli Sultanov,**
*yazıçı, ictimai xadim*

On il vardır ki, Şamaxıda realni məktəb açılmışdır və açıldığı gündən də oranın türk lisanı müəllimliyinə mərhum Mirzə Abbas dəvət olunmuşdur. Tərcümələrinin bir çoxunu müəllimlik əsnasında və bəlkə də öz məktəb şagirdləri üçün yazmışdır. O vaxta qədər təlim kitablarında düzgün və şagird zehninə uyğun bir nəzmə rast gəlmədiyindən, burası mərhumun diqqətini cəlb etmişdir, bu yolda çox çalışmışdı, yeddi yaşlılara məxsus sadəcə nəzmlər ilə bərabər yuxarı siniflərin şagirdlərinə az şey yazmamışdır. Bu gün təlim kitablarımızın bir çoxu "Türk əlifbası", "İkinci il", "Yeni məktəb" və "Ədəbiyyat məcmuəsi" mərhum Mirzə Abbasın səlim və rəvan nəzmləri ilə müzəyyəndir.

**Fərhad Ağazadə,**
*pedaqoq*

Cahanda xalqı edən doğru, düz yola dəvət, Həqiqi rəhbərə, rəhmümaya and olsun!... ...Sənin nəşidələrin, raiqanə şeirlərin, Dəyər cəhanə, cəhanə, səmaya and olsun! Məni çıxarma yadından, çıxarmaram mən həm, Təbiətə, suya, xakə, havaya and olsun! Səhhət təbib olduğu üçün təxəllüsünü "Səhhət" qoymuşdur. Səhhətin dostları şüəradan Ağəlibəy Naseh, Məşədi Məhəmməd Tərrah, Məşədi Ələkbər Sabir idi. Sabir çox vaxt şeirini Səhhətgildə yazardı.

**Salman Mümtaz,**
*ədəbiyyatşünas-alim*

Səhhət bütün klassik Şərq şairlərinin, xüsusən Füzulinin vurğunu idi. Füzuli divanını, demək olar ki, başdan-ayağa əzbər bilirdi. Füzuli qəzəl və qəsidələrini elə böyük məharətlə oxuyurdu ki, ən çətin məzmun da dinləyiciyə çatırdı. Səhhət bizim hamımızda klassik ədəbiyyata, o cümlədən Füzuliyə böyük məhəbbət oyatmışdı. Mən indi də Füzulinin onlarca qəzəlini əzbər bilirəm və bu işdə ancaq Səhhətə borcluyam.

**Cəmo bəy Cəbrayılbəyli,**
*pedaqoq, ictimai xadim*

Abbas Səhhət böyük maarifpərvər idi. Buna görə də o, müəllimi müqəddəs bir sima hesab edir, onun əməyini yüksək qiymətləndirirdi. O, xalqın səadəti üçün çalışan, onun gələcəyi haqqında düşünən müəllimə böyük ehtiram göstərirdi.

**Püstəxanım Yüzbaşınskaya,**
*ədəbiyyatşünas-alim*

Biz bəlkə də Şamaxı şəhərinin vətənimiz olduğunu bilir, lakin Azərbaycan adlı qədim, zəngin, Babəklər yetişdirən bir vətənimiz olduğunu bilmirdik. Bunu bizə ilk dəfə Abbas Səhhət başa saldı. Biz başa düşdük ki, bizim vətənimiz odlar ölkəsidir.

Quba, Dərbənd mahalından tutmuş ta Təbrizə qədər olan ərazi Azərbaycandır.

**Rəmzi Yüzbaşov,**
*coğrafiya elmləri namizədi*

Mirzə bizi tək ədəbiyyatla yox, təbiətşünaslıq və təbabətlə də aşina etməyə çalışırdı. Abbas Səhhət dostunun qədrini bilən, bu yolda hər cür xidmətə hazır olan vəfalı və mərdanə bir kişi idi.

**Əbdülqafar Mahmudov,**
*ədəbiyyatşünas*

Səhhət çox həssas və xeyirxah bir insan idi. Biz yalnız pedaqoji məsələlər barəsində deyil, tibblə əlaqədar da ona müraciət edirdik. O, heç bir zaman məsləhət və köməyini bizdən əsirgəməzdi.

**Məmmədəmin Əfəndi,**
*ədəbiyyatşünas*

Abbas Səhhət XX əsrin əvvəllərində ən gözəl uşaq şeirləri yazan şairlərdən idi. O, ən çox ana yurdun, təbiətin, dağların, dərələrin gözəlliyindən bəhs edir, uşaqlarda xoş əhvali-ruhiyyə, gələcəyə nikbin baxış oyadırdı. Onun uşaq şeirləri ahəngdarlığı, səmimiliyi və axıcılığı ilə fərqlənir.

**Əflatun Məmmədov,**
*ədəbiyyatşünas*

Səhhətin özünəməxsus orjinal yazı manerası vardır. O, hər sözü, hər vurğunu yerli-yerində işlətməyi bacaran sənətkardır. Səhhət özünü uşaqlara öyüd-nəsihət verən mürəbbi kimi deyil, yaxın yoldaş, tərbiyəçi kimi təqdim edir. Şair uşağa yanaşmağı bacarır, onun qəlbinə yol tapır. Bunların nəticəsidir ki, Səhhətin

şeirləri oxucunu düşündürür, təsirləndirir və ona estetik zövq verir.

**Əbdül Əzizov,**
*ədəbiyyatşünas*

Səhhət Azərbaycan romantiklərindən lisan və üslub etibarilə ən sadə və ən açıq yazardır. Onun şeirlərində həzin, səmimi və içli bir ifadə tərzi gözə çarpır. Səhhətin kədəri milli və ictimai bir kədərdir.

**Əbdülvəhab Yurdsevər,**
*türk yazıçısı*

Şairin lirik şeirləri uşaqların estetik zövqünü oxşayır, onlara elmi-kütləvi məlumatlar verir, söz ehtiyatlarını zənginləşdirir. A.Səhhətin ədəbi irsində vətən məhəbbətinin tərənnümünə həsr edilən əsərlər balacaların kommunist əxlaqında xüsusi əhəmiyyət kəsb edir. Uşaqları əməyə alışdırmaq, onları əməksevər ruhda tərbiyə etmək üçün A.Səhhətin əsərləri ən yaxşı materialdır.

**Fərhad Fərhadov,**
*ədəbiyyatşünas-alim*

Abbas Səhhətin kiçik yaşlı uşaqlar üçün yazdığı əsərlərində tərbiyəvi məsələlər əsas yer tutur. Şair hər şeirində balaca oxucularına geniş məlumat, bilik verməyə, müxtəlif həyat, təbiət hadisələri ilə onların təsəvvürünü genişləndirməyə çalışır.

**Zahid Xəlil,**
*professor*

**Konfrans:**
*Abbas Səhhətin yaradıcılığını oxucular arasında daha yaxından tanıtmaq məqsədilə kitabxanalarda konfransların təşkili məqsədəuyğundur.*

Kitabxanalarda məktəblilərin iştirakı ilə **“Abbas Səhhətin yaradıcılığında təmsillərin, pyeslərin mövzusu”** adlı oxucu konfransı da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Abbas Səhhətin yaradıcılığına yaxından bələd olan ədəbiyyatşünasların, yazıçı və şairlərin çıxışları dinlənilir.

Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (**Abbas Səhhətin yaradıcılığında təmsillər, satiralar**);
2. Abbas Səhhətin həyat və yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, ədəbiyyatşünasların, jurnalist, yazıçı və şairlərin çıxışları;
3. Məktəblilərin Abbas Səhhətin təmsilləri əsasında təqdim etdiyi səhnəciklər;
4. Konfransın yekunu.

*Konfransı açan kitabxanaçı təmsil janrı, yaranma səbəbi, öz yaradıcılığında bu janra müraciət edən şairlər haqqında məlumat verir. Sonra isə konfrans iştirakçılarına söz verilir.*

**Kitabxanaçı:** Ədəbiyyat yaranandan söz adamları "ayaqlarında dəmir çarıq, əllərində dəmir əsa" ədalət axtarışına çıxıblar. Amma ədaləti "gördüm" deyən tapılmayıb ki, tapılmayıb. Şairlər, el müdrikləri tamahkarlığı, acgözlüyü, ədalətsizliyi, yetim malına göz dikməyi, paxıllığı, satqınlığı, bir sözlə, bütün neqativ halları başqa ədəbi janrlarla bərabər olaraq təmsillərdə də ifadə ediblər. İnsanları heyvanların dili ilə müdrikliyə, ədalətə, yaxşı əməllərə səsləyiblər. Azərbaycan ədəbiyyatında təmsil sahəsində öz sözünü demiş Abbas Səhhət cansız əşyaları insan kimi düşündürür, danışdırır, onların sevincini, qəzəbini göstərir. Uşaqların bütün bunlara inanması şairin qələminin qüdrətindəndir. Gəlin bu mövzuda sözü iştirakçılarımıza verək.

**I iştirakçı:** Tədqiqatlara əsasən lirik şair kimi tanınan Abbas Səhhətin satiraya bizim təsəvvür etdiyimizdən xeyli çox əhəmiyyət verdiyini, onun bir silsilə olduğunu göstərir. Səhhətin satiralar yazması təsadüfi yaradıcılıq həvəsi deyil, onun ümumi yaradıcılığının təbii, bəzən aşkar görünən və bəzən gizlənən üzvi bir ideya – estetik keyfiyyətidir. Hələ gəncliyində Lafontenə, Krılova müraciət edib satirik təmsillər tərcümə etməsi, fasilə vermədən orijinal təmsillər, "Neft fontanı", "Tağı və Nağı" kimi komik vəziyyətlərlə zəngin pyeslər və nəhayət, satiralar yazması bu yaradıcılığın tənqidi təmayülünü təsəvvür etmək üçün kifayətdir.
**II iştirakçı:** Şair öz ədəbi baxışlarında da satirik ədəbiyyata yüksək qiymət verirdi. O, göstərirdi ki, bədii ədəbiyyatın müasir səviyyəsində tənqidsiz və satirasız keçinmək mümkün deyil. Səhhət satiranı realizmin üzvi bir hissəsi, həm də xalq ruhu ilə sıx bağlı olan bir hissəsi sayırdı. O, XX əsr şəraitində, təzyiq və zorakılıq dünyasında, senzuranın özbaşınalıq etdiyi, hər cür azadlığın "qanlı əllərlə tıxandığı" "fəna bir zamanda" satirik ədəbiyyata böyük ehtiyac olduğunu dərk edir və müasirlərini "eyham və kinayədən" istifadə etməyə çağırırdı:
... zəmanə çünki fəna bir zəmanədir,
Eyham ilə, kinayə ilə natiq olmalı.
**III iştirakçı:** Abbas Səhhət artıq otuzdan yuxarı satiranın müəllifidir. Satiralar həm də, Səhhətin dünyagörüşünün, ayrı-ayrı cəmiyyət hadisələrinə, Sabir yaradıcılığına münasibətinin aydınlaşmasına, dəqiqləşməsinə kömək göstərir, romantik Səhhətlə realist Səhhətin bir-birini tamamlanmasına xidmət edir. Satiralar bir daha göstərir ki, dövrün mürəkkəb, ziddiyyətli toqquşmaları və mübarizələri şəraitində şair məzlumların, əzilənlərin, məhkumların mənafeyini müdafiə etmiş, "boynu kraxmallı", məsləksiz, riyakar ziyalılara, xalqı satanlara, dargöz millətçilərə düşmən münasibət bəsləmişdir.

Satiralar bir daha təsdiq edir ki, Səhhət öz sənət və əqidə dostu böyük Sabirin sənət dünyasından ilham alaraq yeni əsrin əvvəllərində Azərbaycanda yaranan qabaqcıl ideyalı ədəbiyyatın görkəmli nümayəndələrindən biri olmuşdur.

**IV iştirakçı:** Zəngin şifahi xalq ədəbiyyatından, müdrik xalq məsələləri, əfsanə və rəvayətlərindən, klassik Şərq şeiri ənənələrindən bəhrələnən A.Səhhət eyni zamanda böyük rus təmsilçisi İ.A.Krılovun da personajlarından məharətlə istifadə edirdi. Şairin təmsilləri həm mövzu, həm də onun bədii həlli baxımından daha həyati səciyyə daşıyır. A.Səhhət ictimai həyatda, məişətdə gördüyü, müşahidə etdiyi hadisələri öz təmsilində qələmə aldığı zaman mənfi halları islah etmək məqsədi güdürdü. “İt və kölgəsi”, “Ayı və arılar”, “Sərçə və qırğı”, “İki dana”, “Ulaq və aslan”, “Ayı və şir” və b. Təmsilləri belə bir məqamın nəticəsində yaranmışdır. Bu təmsillərdə tamahkarlıq, xudbinlik, lovğalıq, özbaşınalıq ciddi tənqid olunur.

**V iştirakçı:** A.Səhhət ictimai həyatda, məişətdə gördüyü, müşahidə etdiyi hadisələri öz təmsilində qələmə aldığı zaman mənfi halları islah etmək məqsədi güdürdü. “İt və kölgəsi” təmsilində ağzında tikə suya baxan it öz kölgəsini özgə bilib suya atılır və ağzındakı tikəni də itirir. Qanmaz ayı öz nəhəngliyinə güvənib arıların yuvasını dağıdır, ancaq arıların iynəsinin ağrısını duyduqda qaçıb canını qurtarmağa çalışır. İstər “Ayı və arılar” təmsilindəki ayı, istərsə də “Aslan və ulaq”dakı ulaq şairin tənqid hədəfi, ifşa etdiyi tiplərdir. Ancaq ölüm ayağında axmaqlığını anlayan ulaq daxili peşmançılığını büruzə verir:

Gücümü mən bilə-bilə nahəq,
Şirə qıldım hücumən əhməq.
Mən bilirdim bu aslanın hünərin,
Çəkirəm indi səhvimin zərərin.

**VI iştirakçı:** Uşaqların ibrətamiz nəticələr çıxarması üçün şair təmsili əxlaqi-tərbiyəvi mülahizələrlə tamamlayır. “Sərçə və qırğı” təmsilində qırğı sərçəni qovarkən cütcünün qurduğu tələyə düşür və cütcüdən xahiş edir ki onu buraxsın:
İstər idim ovlamağa sərçəni
Sən niyə nahaq yerə tutdun məni?
Verməmişəm mən ki xəsarət sənə,
Sən də dəxi vermə əziyyət mənə.
Qırğı günahsız sərçənin canına qəsd etmək istəyir, lakin özü tora düşdükdə səsini ucaldır, etirazını bildirir, azad olunmasını tələb edir. Cütcü qırğıya daha sərrast və məntiqli cavab verir:
... Bircə mənə qıl bəyan,
Sərçə veribdirmi sənə bir ziyan?
Qəsd eləmişdin nə üçün canına,
Olmuş idin təşnə onun qanına?
Şair təmsilin sonunda haqqı, ədaləti tapdalayanlara ibrət dərsi vermək qəsdilə deyir:
Xalq ilə hər kəs necə rəftar edər.
Haqq onu ol dərdə giriftar edər.
Yaxşılığa yaxşı cəzalar alar,
Pisliyə həm dürlü səzalar alar.
**VII iştirakçı:** A.Səhhət təmsillərinin bir qismini Füzulinin “Meyvələrin söhbəti” təmsilinin bədii üsulundan istifadə edərək yazmışdır. “Güllərin bəhsi”, “Qarışqa və milçək”, “Gün və külək” təmsillərində bir-birilə bəhsə girişmək, öz üstünlüklərini nəzərə çatdırmaq, birinin digərinin zəif və kölgəli tərəflərini açıb göstərməsi başlıca yer tutur. “Güllərin bəhsi”ndə güllər gözəlliklərini tərifləyirsə, “Qarışqa və milçək” də bir-birinin qüsurlarını üzə deməkdən çəkinmirlər. Külək günəşlə (“Gün və külək”) yarışa girib öz gücünü göstərmək istəyir. Günəş isə onun təklifinə razı olub qoyun otaran çobanın yaxasını açmağı təklif edir. Külək əsdikcə çoban yaxasını daha möhkəm bağlayır, bərk-bərk bürünür. Lakin günəş öz hərarətini artırdıqca çoban istiyə dözə bilməyib yaxasını açır. Burada şairin məqsədi

uşaqlarda günəş və külək haqqında, sadəcə təsəvvür yaratmaq deyil, hər işin yolunu bilməyin üstünlüyünü nəzərə çatdırmaqdır.

**VIII iştirakçı:** A.Səhhətin geniş yayılmış "İki dana" təmsilində yoldaşın ağıllı məsləhətinə qulaq asmamağın acı nəticələri təsvir olunur. Eyni tərbiyəvi fikir "Aşpaz və pişik" təmsilinin də əsas məqsədidir. Burada da böyük sözünə, məsləhətlərinə etinasız olanların başına gələn fəlakətdən bəhs edilir.

*Konfransın sonunda məktəblilər Abbas Səhhətin təmsilləri əsasında hazırladıqları səhnəcikləri təqdim edirlər. Uşaqlar təmsillərə uyğun geyimlərdə səhnəyə çıxırlar.*

**Qızılgül:** Mən şahıyam qönçələrin, güllərin,
Ən gözəl istəklisi bülbüllərin.
Mən hamıdan yaxşı yaraşıqlıyam,
Sevməliyəm, ətrə bulaşıqlıyam,
Fəxr edərəm halətimə, həngimə,
Qırmızı yarpaqlarıma, rəngimə.
Bağı tutar ətri-dəhanım mənim,
Eybi nədir varsa tikanım mənim?!

**Ağ zanbaq:** Əldə mənim ağ qədəhim. vardır,
Ağzınadək ət ilə sərşardır.
Var arıdan ötrü qızıltək tozum,
Boyda-buxunda da qəşəngəm özüm.
Gərçi uzundursa mənim yarpağım,
Yoxdu yenə lovğalığım, azmağım.
Həm kəpənək, xırda qarışqa yenə,
Gündə gələrlər, sığınarlar mənə.

**Şəbbu:** Gər yox isə sevməli rəngim mənim,
Şux deyildirsə də həngim mənim,
Ətrim uzaqdan bürüyür aləmi,
Valehü heyrən eyləyir adəmi.
Xalq deyər çün hamı şəbbu mənə,

Fəxr üçün, əlbəttə, yetər bu mənə.
Mən üməralar bağının malıyam,
Güllər arasında tamaşalıyam.

## Qarışqa və milçək

***Aparıcı:****Bir gün qarışqa və milçək görüşüb, bəhsə girişdilər. Onlar hərəsi öz məharətindən danışır, özünü öyürdü.*

**Milçək:** – Sən zirəksən və ya ki mən zirək?
Hara mən istəsəm uçub gedərəm,
Özümə hər yeri yuva edərəm.
Hər xörək üstünə qonub yeyərəm,
Səndən artıq hünərliyəm deyərəm.
Məni hərgah ki qovsalar, qaçaram,
Uçmağa onda qol-qanad açaram.
Qanadım vermiş ixtiyar mənə,
Yoxdur əsla qəmim, nə var mənə?
Xörəyimdir həmişə amadə,
Kim yaşar mən kimi bu dünyadə?
Xazgahım hərirü dibadır,
Mənzilim bizmi-şahü paşadır.
Yoxdur əsla nə hörmətin, nə yerin,
Söylə, aya, nədir sənin hünərin?

**Qarışqa:** – Kəs daha sözünü,
Bəsdir, az tərif eylə öz-özünü.
Yay günü yığmayanda mayəhtac,
Qış olanda, odur, qalarsan ac.
Çəkərəm yayda mən əgərçi cəfa,
Sürərəm qış zamanı leyk səfa.
İşdən ötrü ki, getmədi tənbəl,
İşinin axırı olar əngəl.
Çəksə hər kim ki, bir qədər zəhmət,
Olar, əlbəttə, aqibət rahət.

**Ayı və şir**
Əlbir olub bir ayı bir şir ilə,
Ovladılar dovşanı tədbir ilə.
Olmadılar razı onu bölməyə,
Çıxdı iş axır ölüb-öldürməyə;
Çeynədilər, dişlədilər, diddilər,
Bir-birini al qana qərq etdilər.
Özlərini təqatdən saldılar,
Hər biri bir səmtə düşüb qaldılar.
Tülkü uzaqdan görüb bu haləti,
Bildi ki, yox heç birinin taqəti.
Gəldi götürdü ovu, etdi fərar,
Həsrət ilə baxdı dalınca onlar.

**Aşpaz və pişik**

**Aparıcı:** Keçmiş əyyamda, köhnə dövranda
Bir böyük padişahın İranda,
Bir nəfər kamil aşpazı var idi,
Təbx işində ziyadə pərkar idi.
Bişirərdi gözəl fisincanlar,
Hazır eylərdi dürlü büryanlar.
Dadlı-dadlı, lətif müsəlmalar,
İştəha artıran mürəbbalar,
Leyk mətbəx pişikləri hər vəqt.
Yazıq aşpaz edən kimi qəflət,
İttifaq eləyib cumarlar idi,
Ətdən, aşdan qapıb qaçarlar idi.
Aşpazın təlx olardı övqatı,
Xərci artıb itərdi zəhmatı.
Darıxıb pusquda çəkirdi keşik,
Rastına düşsə idi hansı pişik,
Fikri ondaydı kim, vurub yıxsın,
Onları öldürüb əvəz çıxsın.
Vardı ormanda bir qanan meymun,

Çox fərasətli, kardan meymun,
Düşdü təşvişə, yapdı bir şura,
Yığdı meymunları, dedi guya:

**Qoca Meymun:** -Cümlə qəflətdəsiz, a qardaşlar!
Başımızda böyük fəlakət var.
Padşah aşpazı gəlib qəzəbə,
Etmək istər pişiklərə qələbə.
Olacaqdır müharibə burada,
Qorxuram biz tələf olaq arada.
Yetməmişkən bizə bu işdə zərər,
Edəlim başqa bir diyara səfər.

**Meymunlar:** - Ay qoca, zəifləmisən.
Biz hara, padşah sarayı hara,
Biz hara, cəng, təbl, nay hara?
Yaxşı fikr et bir, ay canım, sən özün,
Bizə aya nə dəxli var bu sözün?
İstər aşpaz pişiklə cəng etsin,
Bizə ondan neçün ziyan yetsin?
Hansı aqil edər buna bavər –
Ki, yetər bizlərə bu işdə zərər?

**Aparıcı:**Qoca meymun çox eylədi israr,
Sözünə heç kəs etmədi iqrar.
Gördü şey çıxmayır mübahisədən,
Qorxduğuyçün o qanlı hadisədən,
Özü yalqızca etdi tərki-vətən,
Başqa ormanda eylədi məskən.
Aşpaz isə gəlib daha təngə,
Hazır olmuşdu ol zaman cəngə:
Bişirib yığmış idi yağlı pilov,
Mürğu-turş, dolma, küftə, şorba, çilov,
Doldurub düzmüş idi nimçələri,

Bəzəmək istəyirdi xönçələri –
Ki, qəfildən pişiklər etdi yürüş,
Getdi talana mürği-turşü xuruş.
Qaçdılar dişrə, çəkdilər mirrov.
Qapdı aşpaz yanar bir odlu kösöv.
Birin öldürdü, qoymadı dəbərə.
Birisin damda vurdu, saldı yerə,
Birinin arxasınca silbələdi,
Filhəqiqət olarla cəng elədi.
Lakin od düşdü, dam-dirək yandı,
Padişahlıq, təvilə odlandı.
Gərçi söndürdü yanğını hüzzar,
Heyf, yanmışdı bir neçə atlar.
Yığdı baytarları o dəm soltan,

**Soltan:** Tez atlara edin dərman!

**Aparıcı:** Ərz qıldı tamam baytarlar:

**Baytarlar:** -Şahım, at yansa bircə dərmanı var.
Xeyli meymun yağı gərək buluna –
Ki, yanan atlara əlac oluna.

**Aparıcı:** Soltan əmr etdi, ləşgər atlandı.
Çıxdı fərman, sərəsgər atlandı.
Pəhlivanlar götürdü tirü kaman,
Oldu fövrən mühasirə orman.
Dörd tərəfdən atıldı qurşunlar,
Gülləbaran olundu meymunlar.
Qoşun öldürdü onları yeksər,
Qaçıb ancaq qutardı bircə nəfər.
O da artıq əzabü zəhmət ilə.
Min bəlalarla, min əziyyət ilə,

Ol qoca meymuna gedib çatdı,
Surəti-macəranı anlatdı.
Ağlaşıb oldularsa çox qəmgin,
Qoca sonra ona verib təskin, söylədi :

**Qoca Meymun:-** Baxmayan böyük sözünə,
Şübhə yoxdur, ziyan vurar özünə.

### Tülkü və qurd

**Aparıcı:** Tülkü gəzəndə yıxılıb nagəhan,
Bir quyuya düşmüş idi bir zaman.
Torpağa sürtmüşdü üzün, həm gözün,
Qurtara bilməzdi ölümdən özün.
Düşdü qəzadan ora qurdun yolu,
Baxdı ki, görsün quyu boşdur, dolu.
Tülkü onu gördü, salam eylədi,
Ağladı, yalvardı, belə söylədi:

**Tülkü:** Qurd lələ, səndən edirəm iltimas,
Sən məni bu təhlükədən qıl xilas.

**Qurd:** – Çox-çox yanıram halına,
Xatirim aşiftədir əhvalına.
Bilmirəm axşam edəcəksən necə?
Sübh açacaqsan nə sayaq bu gecə?

**Tülkü:** – Çox sağ ol, ey qurd lələ,
Boş danışıqdan nə yetər hasilə?
Sən belə hərgah mənə qəmxar isən,
Halıma rəhmin gəlib ağlar isən,
Bir qədər ip tap mənə qıl iltifat,
Ver mənə bir növ ilə burdan nicat.

Yoxsa ki etməz quru söz iktifa,
İş gərək olsun, nə əbəs iddia.

Kitabxanada Abbas Səhhətin yaradıcılığını oxuculara daha aydın şəkildə çatdırmaq üçün yazıçının əsərlərinin təhlilini keçirmək məqsədəuyğundur. İndi isə sizə Abbas Səhhətin ***“Cəhalət səmərəsi, yaxud bir yetimin xoşbəxtliyi”, “Yay səhəri”, “Yuxu”*** əsərlərinin təhlilini təqdim edirik.

**“Cəhalət səmərəsi, yaxud bir yetimin xoşbəxtliyi” pyesinin təhlili:**

**Kitabxanaçı:**Abbas Səhhət ədəbiyyat tariximizdə ilk uşaq pyesi müəlliflərindən biri kimi də tanınır. İstedadlı şair öz pyeslərində elmi biliklərin, maarif və mədəniyyətin səmərəsini, faydasını təbliğ edir. Onun 1912-ci ildə yazdığı “Cəhalət səmərəsi, yaxud bir yetimin xoşbəxtliyi” adlı birpərdəli pyesində valideynlərin elmə, biliyə nadan münasibəti, övladın isə oxumağa, təhsil almağa, elm öyrənməyə cəhdi, marağı səmimiyyətlə qələmə alınmışdır. A. Səhhət əsas mətləbə keçməzdən əvvəl şagirdlərin tərbiyə və təhsilə münasibətlərini onların davranış və rəftarlarında göstərməyə çalışmışdır. Pyesdə iki şagird: İsmayıl və Saday Həsənzadə qarşılaşdırılır.

A.Səhhət əsas mətləbə keçməzdən əvvəl şagirdlərin tərbiyə və təhsilə münasibətlərini onların davranış və rəftarlarında göstərməyə çalışmışdır. Pyesdə iki şagird: İsmayıl və Saday Həsənzadə qarşılaşdırılır. İsmayıl öz yoldaşları ilə pis rəftar etdiyi kimi, dərs oxumaqda da tənbəldir, səliqəsizdir, yalançı və nadincdir. Yoldaşları ilə tez-tez əlbəyaxa olur, onlara şər atır. Saday isə əksinə, dərs əlaçısı olmaqla bərabər, səliqəlidir, doğruçudur, yoldaşları ilə səmimi rəftar edir. Saday nümunəvi şagird olduğuna görə müəllimi Faiq Əfəndi ona hörmət və rəğbət bəsləyir. Hətta əlaçı və nümunəvi şagirdlərdən biri olan Əsədin atası Qori seminariyasında oxumağa getməsinə razılıq vermədikdə onun əvəzində Sadayı göndərirlər. Saday kimsəsizdir, yetimdir. Onun evi məktəb, tərbiyəçisi də

müəllimləridir. Saday təhsilini artırmaq üçün faiq Əfəndinin onu Qori müəllimlər seminariyasına göndərmək istədiyini eşitdikdə sevincinin həddi-hüdudu olmur. Lakin cəhalət mühitində maarif işığını zülmətdə boğmaq istəyənlər də vardır. Əsədin atası Dadaş kişi də beləlǝrindəndir. Müəllimin xahiş, yalvarış və cəhdləri, Əsədin gələcəyi haqqında dediyi xoş sözlər hay-küy salan cahil atanı yumşalda bilmir. Dadaş elə başa düşür ki, oğlunu həmişəlik əlindən almaq üçün tələ qururlar. Qori seminariyasında oxuyanların gələcəyini dərk edə bilməyən atanı, əlbəttə, müəllim yola gətirə bilməzdi. Lakin şagirdlər maarifpərvər müəllimlərin səyi ilə onların şəxsində öz sabahlarını görüb dərk edirlər. Faiq Əfəndinin Sadayı yola salarkən dediyi bu sözlər uşaqlarda sabaha, işıqlı gələcəyə xoş ümidlər doğurur: "Get, əzizim! Ümidvaram ki, az bir vaxtda kamil bir insan olub öz vətəninə qayıdarsan. Vətən və millətinə xidmət edərsən. Get, elmin nuru ilə işıqlan və bu qara camaata qandır ki, elm və mədəniyyət insanın xoşbəxtliyidir. Get, allah sənə kömək olsun". Bu uğurlu diləklər, şübhəsiz, vətəndaş şair olan A.Səhhətin yeniyetmələrə arzusunun ifadəsi idi.

"Tağı və Nağı" pyesində də A.Səhhətin maarifçilik görüşləri əksini tapmışdır. Bu pyesdə yoxsulluq üzündən ev-eşiyini atıb iş sorağı ilə ömrünü künc-bucaqlarda keçirən gənclərin acı taleyini səhnəyə gətirmiş, onların ümidsiz sabahını göstərmişdir. Romantik təbiətli, alovlu maarifpərvər şair Abbas Səhhət nədən yazırsa-yazsın, onu xalqın əhvali-ruhiyyəsi, gəncliyin gələcək taleyi düşündürürdü.

Kitabxanada aşağı sinif şagirdləri ilə Abbas Səhhətin **"Yay səhəri"** şeirinin təhlilini də keçirmək olar. Bunun üçün kitabxanaçı əvvəlcədən şagirdlərə həmin şeiri əzbərləməyi, şeir haqqında öz fikirlərini təhlil zamanı bölüşməyi tapşırıq verir. Əvvəlcə, kitabxanaçı şeir, onun məzmunu haqqında oxuculara ətraflı məlumat verir.

**Kitabxanaçı:** Dərin məzmunlu, bədii cəhətdən sanballı əsərləri ilə Azərbaycan ədəbiyyatını zənginləşdirən istedadlı qələm sahiblərindən biri də Abbas Səhhətdir. A.Səhhət ixtisasca həkim olsa da, uşaqları mənəvi-əxlaqi cəhətdən tərbiyələndirən, onlarda güclü vətənpərvərlik hissləri oyadan çoxlu şeirlər qələmə almışdır. Elə bu kimi cəhətlərinə görədir ki, onun şeirləri oxucular tərəfindən həvəslə mütaliə edilir. Abbas Səhhətin oxucularda böyük maraq oyadan əsərlərindən biri də "Yay səhəri" şeiridir. Təbiət mövzusunda qələmə alınan şeir həcmcə kiçik olsa da, böyük təsir gücünə malikdir. Burada gözəl yay səhəri və yaylaq həyatı şirin dillə təsvir edilir. Müəllif sanki şahidi olduğu, gözlə görüb heyran qaldığı, müşahidələr apardığı təbiət mənzərəsini rəssam fırçası ilə tabloya köçürmüşdür. Şair yay səhərinin məftunedici gözəlliyini daha təsirli nəzərə çatdırmaq üçün şeirin elə ilk misralarındaca bənzətmələrə müraciət edir, şəfəqin qırmızı rəngiylə işıqlanan üfüqi od tutub yanan atəşə bənzədir:

Od tutub qırmızı atəşlə yenə yandı üfüq,
Şəfəqin qırmızı rəngilə işıqlandı üfüq.

Yaylaqda yay səhəri açılır. Hələ sübh tezdən olduğundan hava isinməyib, gecədən əsən xəfif meh adamı azca üşüdür. Göy çəmənin üstünə düşən şeh də hələ qurumayıb. Dağların başından göyün üzünə tərəf ağ duman ucalır, adamda elə təsəvvür yaranır ki, bu dağlar səma ilə birləşib. A.Səhhət əsərdə yalnız təbiət hadisələrini təsvir etməklə kifayətlənmir. Şeiri oxuyanda hiss edirsən ki, müəllif yaylaq həyatına, burada insanların məişətinə, həyat tərzinə yaxından bələddir. Şair təsvir edir ki, yayı yaylaqda keçirən kəndlilər yuxudan Günəşlə birgə oyanmağa adət etmişlər. Onları qarşıda qayğılı bir gün gözləyir. Çoban çaydan uzaq yerdə, dağın döşündə ocaq qalayıb, sürüsünü yaylaqda otlamağa səsləyir. Kəndlilərin bəziləri çölə, bəziləri bağa işləməyə gedirlər. Beləcə, yaylaqda gözəl bir yay səhəri açılır. Məftunedici, qoyunquzunu otlağa, insanları işləməyə çağıran

yay səhəri. Bu yay səhərinin cəlbediciliyi yalnız təbiətin gözəlliyi ilə bağlı deyildir. Səhərin açılması ilə eyni vaxtda yaylaqda həyat da canlanır. Şeirin belə sonluqla tamamlanması təsadüfi deyildir. Təbiətlə insanı vəhdətdə təsvir edən şair təbiəti məhz insanın rövnəqləndirdiyini nəzərə çarpdırmaq istəmişdir. Azərbaycan ədəbiyyatının klassik simalarından biri Abbas Səhhətdir. Biz hələ uşaq bağçasından başlayaraq bu sevimli şairin şeirlərini sevə-sevə əzbərləyir, bu əsərlərin məzmun və ahəngi ilə tərbiyələnirik.

**Yuxu şeirinin təhlili**

**Kitabxanaçı:** "Yuxu" şeirində şairin qəhrəmanı müztərib və pərişan halda zülmət içərisində tənha qalmışdır. Zindan kimi, qəbir kimi qaranlıq bir zülmət içərisində. Bir anda qan yağdıran buludlar oynaşır, aləmi titrədən bir fırtına qopur, ildırımlar gurlayır, şimşək çaxır, odlar parlayır. Qarşıda yeni bir dünya canlanır: bura dörd yanı al-əlvan çiçəklərə qərq olmuş, rəna bir çiçəklikdən ibarətdir. Bənövşələr, yasəmənlər, yaşıl sünbüllər ətrafa ətir saçır; fəvvarələr ucalır, bulaqlar axır, yollar isə parlaq sədəfə bürünmüşdür. Bir sözlə, bura gözə görünməyən "cənnətdir" ki, şairin məst olmuş qəhrəmanı heyran-heyran bu yerlərə tamaşa edir. Bu zaman ona lütf və nəvazişlə bir pəri yaxınlaşır, yer-göy nura bürünür, ona bir kölgəlik göstərib deyir: "Otur, bu yer sənindir!". Lakin bu görüş uzun çəkmir pəri qeyb olur. Zülmətli bulud bu əfsanəvi dünyanı alt-üst edir, şirin yuxuya dalmış qəhrəman dəhşət içində oyanır. İşıqlanan dan yeri onun gözlərində ümid çırağı yandırır:

Durdum gördüm işıqlanır dan yeri,
De, xeyr olsun bu uyğunun tədbiri!

Beləliklə, gələcəyə ümidlə baxan, azad dünyaya yönələn, real həyatdan qida alan Səhhət xəyalı mahiyyətcə faydalı idi, tarixi inkişafla onun arasında bir uyğunluq vardı. Abbas Səhhət

romantizmi həyat ilə təmasda idi, bütünlükdə irəliyə, gələcəyə səsləyən bir romatizm idi.

**Şeir müsabiqəsi**

Abbas Səhhətin yaradıcılığını oxuculara daha yaxından tanıtmaq məqsədilə kitabxanalarda, məktəblərdə, mədəniyyət müəssisələrində şeir müsabiqələri də təşkil etmək olar. Bunun üçün on gün ərzində uşaqlar kitabxanaya gələrək, Abbas Səhhətin qələmə aldığı kitabları oxuyur, şeirlərini əzbərləyirlər. Müsabiqənin sonunda həmin şeirləri ən gözəl şəkildə səsləndirən oxucu kitabxananın müdiriyyəti tərəfindən mükafatlandırılır.

**I oxucu: Ana və bala**

Oturmuş ana,
Basmış bağrına –
Nazlı körpəsin,
Layla der ona.

Uşaq yatmayır,
Baxır, ağlayır,
Anası onu
Bu cür oxşayır:

“Dağda darılar,
Sünbülü sarılar,
Qoca qarılar,
Bu balama qurban.

Dağda tağanlar,
Bir-birin boğanlar,
Oğlan doğanlar,
Bu balam qurban.

Bir bölük atlar,
Atlar göy otlar,
Ərsiz arvadlar,
Bu balama qurban.

Dağın maralı,
Gözü qaralı,
Dünyanın malı,
Bu balama qurban".

**II oxucu: Vətən**
Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, vətənimdir, vətənim.
Məni xəlq eyləmiş əvvəlcə Xuda,
Sonra vermiş vətənim nəşvü nüma.
Vətənim verdi mənə namü nəmək,
Vətəni məncə unutmaq nə demək?!
Anadır hər kişiyə öz vətəni:
Bəsləyib sinəsi üstündə onu.
Südüdür ki, dolanıb qanım olub,
O mənim sevgili cananım olub.
Saxlaram gözlərim üstə onu mən,
Ölərəm, əldən əgər getsə vətən.
Vətənin neməti nisyan olmaz,
Naxələflər ona qurban olmaz.
Vətən – əcdadımızın mədfənidir,
Vətən – övladımızın məskənidir.
Vətənin sevməyən insan olmaz,
Olsa, ol şəxsdə vicdan olmaz.

**III oxucu: Məktəb şagirdi**
İştə bir tərbiyəli, aqil bir uşaq,
İştə bir zirək, ayıq, kamil uşaq,
Geyinib məktəbli formasını,

Götürüb qoltuğuna çantasını,
Məktəbə şövqi-tama ilə gedir,
Keçməsin vaxtı deyə sürət edir.
Gecə-gündüz çalışır mərdanə,
İstəyir sibqət edə ərqanə.
Könlünün arizuyla-yektası:
Vətənü millətinin ehyası.
A çocuq, get sənə haqq yar olsun.
Cümlə halında mədədkar olsun.
Elm təhsili əziyyətli isə,
Qışda yol getməyi zəhmətli isə,
Qorxma qeyrətlə çalış, əlbəttə,
Biləcəksən, oxusan tez vəqtə –
Ki, cahan içrə böyük insanlar,
Nə qədər zəhmətə düşmüş onlar.
Sinfi-ədadini təkmil eylə,
Məktəbi-alidə təhsil eylə.
Səy elə, sən də böyük insan ol,
Doğruluqla bu ada şayan ol!
Qoy cahan elm ilə pürnur olsun,
Vətən o sayədə məmur olsun.

**IV oxucu: İlk bahar**

Gəldi martın doqquzu,
Bayram etdik Novruzu.
Qar əridi, yox oldu,
Çaylarda su çox oldu.
Dağlar çöllərə dişərdi,
Novruzgülü göyərdi.
Gecə-gündüz tənləşir,

Hava hərdən çənləşir.
Dağa qalxır dumanlar,
Tez-tez yağır leysanlar.
Yüngül, sərin meh əsir,
Yağmuru birdən kəsir.
Aralanır bulutlar.
Təravətlənir otlar.
Düşür günün ziyası,
Artır yazın səfası.
Göy üzündə bir qəşəng
Ta görünür yeddi rəng.
Gözəl qövsi-qüzehlər,
Qəlbə verir fərəhlər.
Quşlar ötür çöllərdə,
Ördək üzür göllərdə.
Əsir isti küləklər,
Uçur qazlar, ördəklər.
Yarpaqlanır ağaclar,
Yaşıllaşır yamaclar.
Seyrə çıxır uşaqlar,
Göy çəməndə oynaqlar.

**V oxucu: İki uşaq**
Yoldaşına bir uşaq
Dedi: – Dur gəl oynayaq.
Oynamağın vaxtıdır,
Qızılgülün taxtıdır.
Qızılgülü əkərlər,
Misqal ilə çəkərlər.
Gedək görək uşaqlar

Bağda nə cür oynaqlar.
Yoldaş dedi: – Qardaşım,
Dinmə, ağrıyır başım.
Açılsa gül olsa yaz,
Mənim könlüm açılmaz.
Mən dərsimi bilmirəm,
Oynamağı neylirəm.
Bunu dedi o birisi:
– Bu gün qoy qalsın dərsi,
İndi hələ gəl gedək,
Bağda gəzib seyr edək.
Ertə durarsan səhər,
Dərsi edərsən əzbər.
Yoldaşı verdi cavab:
– Danışma bəd-bihesab,
Sübhə bugünkü işi
Qoymaz ağıllı kişi.
Dərsimi hazırlaram,
Sonra gedib oynaram.

**Biblioqrafik İcmal**

*Abbas Səhhət yaradıcılığını kitabxanalarda təbliğ etmək məqsədilə onun qələmə aldığı əsərlərin biblioqrafik icmallarını da təşkil etmək olar. Hamımıza məlumdur ki, Abbas Səhhət yaradıcılığı boyu vətən mövzusuna çox toxunmuş, bu mövzuda çox gözəl əsərlər yaratmışdır. Sizə "Abbas Səhhət yaradıcılığında vətən mövzusu" adlı biblioqrafik icmalı təqdim edirik.*

## Abbas Səhhət yaradıcılığında vətən mövzusu

Abbas Səhhətin yüksək tərbiyəvi məzmun və kamil formaya malik əsərləri çoxdur. Bunlardan "Vətən" şeiri, xüsusilə diqqəti cəlb edir. Əsər başdan-başa vətən məhəbbəti ilə yoğrulmuş, vətən eşqinin yüksək ifadəsinə çevrilmişdir. Burada müəllif öz fikrini elə aydın və səlis bir dillə ifadə edir ki, şeirin ideyası oxucuya tez çatır, onu həyəcanlandırır, vətənə məhəbbət hissini daha da gücləndirir. Şair burada sadəcə olaraq "Vətəni sevin" deməklə kifayətlənmir, onu nə üçün sevmək lazım olduğu fikrini də yüksək bir sənətkarlıqla əsaslandırır:

Vətənim verdi mənə nanü nəmək,
Vətəni, məncə, unutmaq nə demək?!
Anadır hər kişiyə öz vətəni,
Bəsləyib sinəsi üstündə onu.
Südüdür kim, dolanıb qanım olub,
O, mənim sevgili cananım olub.

Şeirin sonrakı hissəsində müəllif göstərir ki, vətəni təkcə sevmək azdır, onu göz bəbəyi kimi qorumaq, vətən uğrunda canından keçməyə hazır olmaq da hər bir vətən övladının borcu, amalı olmalıdır. Vətənin hər qarışı müqəddəsdir, əzizdir, çünki burada ata-babalarımız dəfn olunmuşdur, çünki bura övladlarımızın yurdu, yuvası, məskənidir. Vətəni heç vaxt unutmaq olmaz, onu sevməyənlər yalnız vicdanını itirmiş şəxslər ola bilərlər. Vətənpərvər şair də əsərin sonunda bu fikri qabarıq bir şəkildə nəzərə çarpdırır:

Vətənin sevməyən insan olmaz,
Olsa, ol şəxsdə vicdan olmaz.

A.Səhhətin şeirlərində vətənə, xalqa məhəbbət böyük ilhamla tərənnüm olunmuşdur. O, "Vətən", "Əhmədin qeyrəti", "İstiqbal bizimdir", "Şair, şeir pərisi və şəhərli" əsərlərində gəncləri vətəni sevməyə, onun azadlığı naminə mübarizə aparmağa sövq edir.

Könlümün sevgili məhbubu mənim
Vətənimdir, vətənimdir, vətənim.

Deyən şair vətəni anaya bənzədir. Ana uşağı böyüdüb bəslədiyi kimi, vətən də bizi sinəsində böyüdür. Bizim qanımız onun südüdür.

Vətən əcdadımızın mədfənidir,
Vətən övladımızın məskənidir.
Vətəni sevməyən insan olmaz.
Olsa, o şəxsdə vicdan olmaz.

Romantik qəhrəmanın keçmiş, bu gün və gələcək haqqındakı bütün düşüncələrini birləşdirərək ümumiləşdirən ən əsas mövzu vətən mövzusudur. Onun bütün fədakarlığı vətən üçündür, vətən onun "canıdır, qanıdır". Ən uca məhəbbət vətən məhəbbətidir. Vətənə, millətə sədaqət nümunəsi Azərbaycan ədəbiyyatının klassik örnəkləri sırasında vətənpərvərlik, yurdsevərlik hissinin, hürriyyət və istiqlal məfkurəsinin aşılanmasında zəngin ədəbi qaynaqların üst qatından qardələn, narıngülü, novruzçiçəyi ülviyyəti ilə boy göstərən poetik nümunələrdən biri də, müqtədir sənətkarımız Abbas Səhhətin milli-mənəvi düşüncə ensiklopediyasını, tarixi-etik ənənələr külliyyatını, vicdan və əxlaq kodeksini özündə təcəssüm etdirən "Vətən" (1909) şeiridir. Yüz ildən çoxdur ki, "Vətən" yalnız ədəbi-bədii nümunə, sevgi-məhəbbət simfoniyası olmaqdan daha yüksəkdə dayanan, tarixi-coğrafi hüdudlarımıza maraq və rəğbət oyadan, milli şüurun inkişafına təkan verən, vətənsevərlər hərəkatının həyatda və sənətdə andına, himninə çevrilən dərs vəsaiti, müdrik kəlamlar toplusudur.

Vətənin sevməyən insan olmaz.
Olsa da, ol şəxsdə vicdan olmaz.

Mahmud bəy Mahmudbəyovla 1909-cu ildə "Yeni məktəb" (Üçüncü il) adlı dərslikdə nəşr edilən Abbas Səhhətin bu əsəri yazıldığı vaxtdan indiyədək yeni-yeni nəsillərin vətənpərvərlik tərbiyəsinin yüksəldilməsində, dünyagörüşünün genişlənməsində, yurdsevərlik duyğularının ovxarlanmasında,

cilalanmasında, uca, saf könüllərin fəth edilməsində müstəsna rol oynamış və bu gün də, aktuallığını, çağdaşlığını, əhəmiyyətini qoruyub saxlayır. Şübhəsiz ki, mayası millətə, ocağa sevgidən yoğrulan “Vətən” in müqəddəs missiyası ilk növbədə istiqlal ideallarına sonsuz xidmət göstərməsi, azadlıq, müstəqillik uğrunda mübarizələrdə mətin mücahidlərin formalaşmasında mənəvi təsir qüdrəti ilə şərtlənir. Abbas Səhhətin “Millətə xitab”ında (1907) “Millət, ey banisi-həyati-vətən!” – deyə şairin poetik müraciəti, çağırışı, hayqırtısı çağdaş elmi-nəzəri, ədəbi-fəlsəfi düşüncə müstəvisindən yanaşdıqda da, nə qədər aydın, dəqiq, dolğun, ölçülü-biçili və müdrikliklə söyləndiyi görünməkdədir. Böyük ədibin bütün fəaliyyəti, bədii yaradıcılığı vətənə və millətə sədaqət nümunəsindən, xalqın maariflənməsi, gənc nəslin milli təhsil sahəsində uğurlar qazanması üçün yorulmaq bilmədən, əzablara qatlaşaraq xidmətlər göstərmək eşqindən, ehtirasından ibarətdir. A.Səhhət öz dövrünün mətbuat orqanlarından “Şərqi-rus”, “Həyat”, “İrşad” “Füyuzat”, “Dəbistan”, “Rəhbər”, “Zənbur”, “Məlumat”, “Yeni irşad”, “Tərəqqi”, “Kəlniyyət”, “Məktəb”, “Molla Nəsrəddin”, “İqbal”, “Yeni iqbal”, “Son xəbər”, “Bəsirət”, “Yeni məktəb”, “Qurtuluş”, “Açıq söz”, “Sovqat”, “Qardaş köməyi” və b. qəzet və jurnallar ilə fəal əməkdaşlıq etmiş, şeirlərini yayınlatmışdır.

“Mühərrirlər və ədiblər cəmiyyəti” yeni təşəbbüsdə bulunaraq “hərbzədələr nəfinə”, müharibədən ziyan çəkən insanlara maddi və mənəvi yardım edilməsi, ianələrin toplanılması məqsədilə “Qardaş köməyi” adlı siyasi, ədəbi, ictimai yönümlü bir məcmuə hazırlamağa qərar verdi. “Qardaş köməyi” 1917-ci ilin fevralında oxucularına çatmalı idi. Lakin, Rusiyada fevral burjua-demokratik inqilabının ılıq havasının təsiri altında məcmuəni ərp bağlamış materiallardan azad etmək, ən kəsərli nəsr və nəzm nümunələri ilə barındırmaq, senzura

qadağalarına məhəl qoymadan ən aydın həqiqətlərlə zənginləşdirmək üçün jurnalın naşirlərinə əlavə üç ay vaxt lazım oldu. Əslində topludakı ictimai-siyasi xəbərlər, publisistik materiallar yenidən işlənsə də, ədəbi-bədii əsərlər olduğu kimi saxlanmışdır. “Qardaş köməyi”nin birinci sayında Məhəmməd Əmin Rəsulzadənin “Bizim nöqteyi-nəzərdən”, Hüseyn Cavidin “Hərb və fəlakət”, Abdulla Şaiqin “İdeal və insanlıq”, Əhməd Cavadın “Yazıq”, Seyid Hüseynin “Ağarılan dişlər”, Məmməd Səid Ordubadinin “Hürr - hürriyyətə”, Tağı Şahbazi Simurğun “Aclar”, Firidun bəy Köçərlinin “Heyvaniyyət və insaniyyət”, Əbdürrəhim bəy Haqverdiyevin “Süleyman əfəndi, “Bakı Sənaye Məktəbinin müəllimi Cəfər Cabbarzadə”nin “Boranlı qış gecəsi, şaxta şiddət ilə kəsir” əsərləri ilə yanaşı Abbas Səhhətin “Təxliyə, yaxud qaçqın” şeiri və “Qaragünlü Həlimə” hekayəsi də verilmişdir. Abbas Səhhətin vətən, ölkə mövzusunda yazdığı “Azərbaycan” şeiri Cümhuriyyət dövründə tərtibçi və tərcüməçi kimi tanınan Ağahəsən Mirzəzadənin naşirliyi ilə “İran” elektrik mətbəəsində çıxan “Milli nəğmələr” kitabında (1919, səh.2-3) öz əksini tapmışdır.

Azərbaycan ölkəsidir vətənim,
Simurğun sayəsində məskənim.
Azərbaycanda mən vücudə gəldim,
Xaliqimə qarşı sücudə gəldim.

**Ədəbi bədii gecə**

Ədəbi-bədii gecə oxucular tərəfindən ən çox sevilən tədbirlərdəndir. Abbas Səhhətin yaradıcılığını oxuculara tanıtmaq məqsədilə uşaq kitabxanalarında ədəbi-bədii gecələrin keçirilməsi məqsədəuyğundur. Bu tədbirə həm kitabxanaçılar, həm də oxucular həvəslə hazırlaşırlar. Ədəbi-bədii gecəni **“Ölməz əsərləri ilə ölümsüzlük zirvəsini fəth edən Abbas Səhhət”** adlandırmaq olar. Tədbirdə şairin həyat və yaradıcılığı

haqqında çıxışlar, oxucular tərəfindən hazırlanmış səhnəciklər də yer alır. Şairin yaradıcılığı ilə yaxından maraqlanan ədəbiyyatşünaslar tədbirə dəvət olunarsa daha maraqlı olar. Kitabxanaçılara kömək məqsədilə ədəbi-bədii gecənin ssenarisini veririk.

**I Aparıcı:** Əziz məktəbli kitabsevərlər! Bu gün bura yığışmaqda məqsədimiz hər bir oxucunun şeirlərini, hekayələrini, təmsillərini, pyeslərini sevə-sevə oxuduğu qüdrətli ədəbiyyatşünas Abbas Səhhətin yaradıcılığını sizə daha yaxından tanıtmaqdır.

**II Aparıcı:** Azərbaycan realizmi yeni bir mərhələyə yüksəldi. Hadi, Cavid, Şaiq isə ədəbiyyatda romantik cərəyanın nümayəndələri kimi tanındılar. Yeni əsrin əvvəllərində yazıb-yaradan, klassiklər sırasına keçən həmin məşhur adlardan biri də Abbas Səhhət idi. 1905-ci ildən sonra Səhhətin çoxtərəfli ədəbi-ictimai fəaliyyət dövrü başlayır. Şairin fəaliyyətinin xarakterini həyat, özü, cəmiyyətin qarşısında duran vəzifələr müəyyənləşdirir. Onun incə, həssas, şairanə ruhu, zərif təbiəti, qabaqcıl ideallarla qidalanan təfəkkürü, böyük şairlik istedadı bu yüksəliş üçün möhkəm bir bünövrə idi. Bu mənəvi bünövrə imkan verirdi ki, şair öz ilhamını bir çox peşəkar şairlər kimi ancaq və ancaq şeir ilahəsi ilə qovuşdursun, özünü ancaq ona həsr etsin.

**I Aparıcı:** Həkimlik Səhhətin həyatında xüsusi yer tuturdu. O, Tehran Universitetinin tibb şöbəsini bitirmişdi. Xalqına mənən xidmət etmək yolunda fədakarlıq göstərən bir şair ona cismani cəhətdən də yardımdan imtina edə bilməzdi. Çox çəkmir ki, o, "həkim Abbasqulu" adı ilə məşhurlaşır, öz qayğıkeşliyi, təmənnasız səmərəli müalicələri, mehribanlığı ilə həmyerlilərinin sevimlisinə çevrilir. Şairin "Səhhət" təxəllüsünü seçməsi də təsadüfi deyildi. O, şeirlərində "Səhhət" kəlməsini

bəzən həm təxəllüs, həm də şəfa, sağlamlıq mənasında işlətmişdir.
**II Aparıcı:** Abbas Səhhətin ədəbi yaradıcılığının mühüm bir hissəsini uşaqlar üçün yazdığı əsərlər təşkil edir. Çünki bu dövr ərzində Azərbaycanın ziyalıları, maarifçi-yazıçıları uşaq ədəbiyyatımızın problemlərinin həllinə çalışır, bu sahəni inkişaf etdirmək üçün ciddi yaradıcılıq işləri aparırdılar. Bunların arasında özünəməxsus üslubu və orijinal yaradıcılıq cığırı olan Abbas Səhhət də var idi.
**I Aparıcı:** Uşaqlarla yaxın təmasda olan və ixtisasca həkim olmasına baxmayaraq məktəbdə bir müəllim kimi fəaliyyət göstərən şair, onların təlim-tərbiyəsinə müsbət təsir göstərən "Firdövsül - ətfal, yaxud cocuqlar bağçası", "Küçə uşağı", "Məktəb şagirdi", "Bir məktəbdə imtahan" və sair şeirlərini yazmışdır. Şair təmsil janrının imkanlarından məharətlə istifadə edərək mövcud cəmiyyətin eyibləri və nöqsanları və mənəvi-əxlaqi sifətləri göstərməklə onlara tərbiyə hissləri aşılamışdır.
**II Aparıcı:** "İt və kölgəsi", "Sərçə və qırğı", "Qarışqa və milçək", "Tülkü və meymun", "Qarı və qulluqçuları", "Aşpaz və pişik" və sair əsərləri bunu təsdiq edir. Tərcüməçilik sahəsində özünün məktəbini yaratmış, A.Puşkin, M.Lermontov, İ.Krılov, İ.Nikitin, V.Hüqo, S.Nadson və digər sənətkarların əsərlərini dilimizə tərcümə etmişdir.
**I Aparıcı:** Abbas Səhhətin uşaqlar üçün yazdığı şeirləri məzmun və mündəricə cəhətdən zəngindir. Uşaqların həyatı, təhsili və tərbiyəsi, vətənə məhəbbəti, təbiətə, heyvanlar aləminə münasibəti bu şeirlərin mövzusu olmuşdur. "Ata və oğul", "Ana və bala", "Oğru və anası", "İki uşaq", "Məktəb şagirdi", "Tənbəl" şeirlərində A.Səhhət uşaqları məktəbə və maarifə çağırır, nicat yolunun ancaq elmdə olduğunu söyləyir, bu məramını uşaqların təbii ehtiyacının nəticəsi kimi ifadə edir. "Ata və oğul" şeirində oğul atasına müraciətlə deyir:
Ay dədə, dur get mənə çox şeylər al!

Bir dənə çanta, bir-iki dəftər al!
Mən dayım oğluyla gəlirdim bayaq,
Gördüm o məktəbdə oxur çox uşaq.
*İfaçılar səhnəyə çıxıb Abbas Səhhətin "Quşlar", "Cücələr" mahnısını ifa edirlər.*

**II Aparıcı:** İnsanın xoşbəxtliyini və səadətini zəhmətdə görən şair valideynlərin dili ilə övladları qeyrətli əməyə çağırır, onlarda tənbəlliyə, ətalətə, geriliyə qarşı barışmazlıq tərbiyə edir. Mənfi xasiyyətlərin uşaqların həyatda rüsvay etdiyini, onların inkişafına əngəl olduğunu söyləyir.

**I Aparıcı:** A.Səhhət vətənə məhəbbət oyatmaq üçün təbiəti, baharı və qışı tərənnüm edir. "Köç" şeirində aran və yaylaq, elin adəti sənətkarlıqla təsvir olunur:

Səhər-səhər yaz çağı
Köçür oba yaylağa.
Gəlinlərin balağı
Batır lilə, batlağa.
Arvad, kişi, oğlan, qız,
Gön çarıqlı, başmaqlı
Gedir qoruq-qaytaqsız,
Gəlin, qızlar yaşmaqlı.

**II Aparıcı:** A.Səhhət təbiət aşiqi idi. Onun yaratdığı peyzajlarda təbiət real və canlıdır. Şair təbiəti insan və onun əməyi ilə təmasda təsvir edir. "Yay gecəsi"şeirində şairin incə və həssas qəlbinin döyüntüsü hiss olunur:

Od tutub qırmızı atəşlə yenə yandı üfüq,
Şəfəqin qırmızı rəngilə işıqlandı üfüq.
Bir qədər çaydan uzaq, od qalamış dağda çoban.
Oyadır öz sürüsün otlaya yaylaqda çoban,
Yumuşaq göy çəmənin üstə düşüb şeh gecədən,
İsti yoxdur, hələ var bir balaca meh gecədən,
Ağ dumanlar ucalır göy üzünə dağlardan,
Çox sərindir havası, keçmə bu yaylaqlardan.

Şeirdə səhər mehinin nəfəsi, göy çəmənin ətri, şehin təravəti duyulur. Belə bir anda oxucu özünü sürüsünü göy yaylağa yayan çobanın yanında, zəmilərə yollanan biçinçilərin arasında hiss edir. A.Səhhətin təbiət şeirlərində yoxsul kəndlilərin həyatı, məişəti canlandırılır. Şairin “Qış”, “Yaz”, “Yay gecəsi” şeirlərində də eyni təravət duyulur. Bu qəbil şeirlərində A.Səhhət uşaqlarda və gənclərdə vətənimizə, onun zəngin təbiətinə və əməksevər insanlarına məhəbbət hissi oyadır.

**I Aparıcı:** Bəli, Səhhət Azərbaycan ədəbiyyatında çox gözəl, real təbiət mənzərələri yaradan yazıçılardan sayılır. Təbiəti tərənnüm Səhhət lirikasının əsas xüsusiyyətlərindəndir. Səhhət təbiəti bütün canlılığı ilə duya bilmiş, onun gözəlliklərini məharətlə tərənnüm etmişdir. XX əsr Azərbaycan ədəbiyyatında təbiət təsvirləri sahəsində Səhhət qədər müvəffəq olan ikinci bir şair, demək olar yoxdur. Onun bədii istedadı burada qüvvətli bir şəkildə üzə çıxmışdır. Abbas Səhhətin poeziyalarında Azərbaycan təbiətinin çox incə xüsusiyyətləri öz əksini tapmışdır. Şairin təbiəti təsvir edən şeirlərini oxuyarkən, insan sanki Azərbaycanın doğma çöllərinə gedir, onun geniş düzlərinin, yaşıl yamaclarının ətrini duyur, axşam və səhərlərini, isti və soyuğunu hiss edir. Böyük bir ustalıq və sənətkarlıqla yaradılmış bu şeirlər Azərbaycan poeziyasının incilərindəndir.

**I Aparıcı:** Azərbaycanda XX əsrin əvvəlinin ədəbi-bədii tufanı, onun həm realist, həm də romantik dalğada qabaran, öz içərisindən aşıb-daşan narahat nəhri məhz Səhhətin poeziyasında durulmuşdur. Sözün əsl mənasında “millilik” və “millət” anlayışı, “Ana dili” və “Vətən” məfhumu müasirləri və qələm dostları arasında məhz Abbas Səhhətin zəngin ədəbi-elmi irsində bu qədər aydınlıq kəsb etmişdir. Öz tərcümeyi-halına özü ayrıca şeir həsr edən Səhhətin yaradıcılığının əsas motivləri bəşəriyyətə məhəbbət, elmə meyl, sənətə pərəstişdir. Bəli, Abbas Səhhət dedikdə, Azərbaycan torpağını hərarətlə vəsf və

tərənnüm edən, onun təbiətini özünəməxsus poetik boyalarla canlandıran bir şairi düşünürük.

**II Aparıcı:** Bütün bu çoxcəhətli fəaliyyətlə yanaşı A. Səhhət bədii yaradıcılığa geniş yer verirdi. Şeir elə bil onunla qoşa dünyaya gəlmişdi; deyilənlərə görə şeirsiz, onun bir günü də keçməzmiş. Poeziya artıq şairin bütün varlığını, onun ideyalar aləmini ifadə etmək üçün ən qüvvətli bir vasitəyə çevrilmişdi. Hər şeir sanki onun romantik qəhrəmanının bir cəhətini, bir ideya xüsusiyyətini nümayiş etdirirdi. Səhhət uzun illər davam edən ideya-yaradıcılıq axtarışlarında mürəkkəb bir yol keçmişdir. Məzmunu dəyişən bu axtarışların mərkəzində daimi, dəyişməz bir problem dururdu: maarif- xalqa nicat gətirə bilən ictimai amil kimi!

**I Aparıcı:** Azadlıq mövzusu Abbas Səhhətin romantik poeziyasında maarif mövzusunun ayrılmaz, üzvi bir hissəsi kimi tərənnüm olunurdu, onun aparıcı ideya xətlərindən biri idi; bu, poeziyanın ətinə-qanına hopmuş, bütün ruhuna nüfuz etmiş, onun ideya-estetik mahiyyətini təşkil edən bir mövzu idi. Səhhət azadlığı təkcə öz xalqı üçün yox, bütün xalqlar üçün, bütün insanlar üçün tələb edirdi. Onun fikrincə, insan yaşadığı cəmiyyətdə hər cür qeyddən, təzyiqdən, məhrumiyyətdən azad olmalıdır. Cəmiyyət bərabərlik əsasında qurulmalıdır, orada "bütün insanlar məsud yaşamalıdır". Ancaq azad cəmiyyət özü azad insan problemini həll edə bilər. Cəmiyyətdəki bütün qanunlar insanın ləyaqətini yüksəltməyə həsr olunmalıdır.

Sən mükafatını insanlığa xidmətdə ara!

**II Aparıcı:** Abbas Səhhətin ədəbi yaradıcılığının mühüm bir sahəsini uşaqlar üçün yazdığı əsərlər təşkil edir. On beş ilə qədər müəllimlik etmiş Səhhət yalnız məktəbdə deyil, ədəbi yaradıcılığında da bir müəllim olmuşdur. Onun uşaq və gənclər üçün yazdığı bir çox lirik şeirlər, səhnə əsərləri və təmsillər təlim-tərbiyə işinə kömək etmişdir. Bu əsərlərin müəllifi

Azərbaycan uşaq ədəbiyyatı tarixinə parlaq səhifə yazmış Sabir və Mirzə Cəlil, Şaiq və Süleyman Sani kimi qələm yoldaşları ilə birlikdə bu ədəbiyyatı çoxəsrlik inkişafında yeni, yüksək pilləyə qaldırmışdır.

**I Aparıcı:** Romantik şairin tez-tez işlətdiyi bir çox sözlər dərya, dəniz, səhra, üfiq, ümman, ildırım, şimşək, vulkan, bulud, fırtına, qiyamət, işıq, şölə və s. azadlıq mövzusunun bu və ya digər mənasını, hissəsini ifadə etmək üçün istifadə olunurdu. Hətta şairin dilsiz göylərə, uzaq ulduzlara, sehrli mələklərə, xəyali cənnətlərə müraciəti də azadlıq mövzusu ilə əlaqədar idi, onun romantik xəyalını gələcəklə, yaranacaq yeni bir dünya ilə bağlayan məfhumlar idi.

**II Aparıcı:** Səhhətin ilk şeir məcmuəsini "Sınıq saz" adlandırmışdı. Bu həqiqətən romantik şairin sınıq, incik, qüssəli qəlbinin həzin sədaları idi, onun narahat könlünün fəryadları idi. Səhhət "Oxucularıma" deyə müraciətlə yazdığı şeirində də kitabçaya toplanan əsərlərin "ürəkdən çıxan ixtiyarsız fəryad" olduğunu bildirmişdi.

**I Aparıcı:** Şairin "Aləmi-islama" şeirini nəzərdən keçirdərkən görürük ki, bütün ətrafı inilti və fəryad bürümüşdür, hamı müztərib və xəstəhaldır, qəlblər ağlayır, günlər hüzn ilə keçir, qəmli-qəmli inləyən musiqi kimi. Lakin "xəstəhal" vətən əlacsız deyil, "Sınıq  saz"ın odlu məzmunları hər xəstə ruhun davasıdır:

Dinlə əlhanını sınıq sazının,
Millətə qəlbən ağlayan bacıdır.
Odlu məzmunları soyuq yazımın
Xəstə ruhun davasıdır, acıdır.

*Şeir gələcəyə ümid oyadan misralarla tamamlanır:*

"Ey sən, ey necmi-zahiri-dərxab!
Oyan, artıq ürəkdə qalmadı tab.
Açıl, ey şəms, qəmi-səhaibdən!
Yüksəlib dövreyi-kamala yetiş!

Qurtar, ey sevgilim, məsaibdən,
Xubruluqda etidala yetiş.
Çıx ki, bitsin ləyali-firqətimiz,
Gül, tükənsin dəməvi-həsrətimiz!

**II Aparıcı:** Səhhət şeirindəki azadlıq probleminə, azad cəmiyyət ideyasına azad sənət ideyası da daxildir. Səhhətin romantik qəhrəmanı həm də şairdir. Onun yeni dövrün sənəti uğrunda mübarizəsi ardıcıldır. "Şair", "Tərcümeyi-halım yaxud hululu", "Naseh", "Sabir", "Oxucularıma", "Bəyani-hal", "Şərara" kimi şeirlərdə romantik qəhrəmanın yeni, böyük ədəbiyyat uğrundakı mübarizəsinin mənzərəsi, bu mübarizənin çətinlikləri öz əksini tapmışdır.

**I Aparıcı:** Məşhur "Şair, Şeir pərisi və Şəhərli" poeması bu mühüm müasir problemin həlli baxımından Səhhət yaradıcılığının ən yüksək zirvəsini təşkil edir. Poemada sənətə bir-birini rədd edən iki baxış, iki münasibət vardır: onlardan biri ictimai varlığı təqsirləndirən, onu nöqsanlardan azad görmək istəyən qabaqcıl sənəti, qabaqcıl sənətkarı, onun müasir estetik düşüncəsini, o biri də öz acizliyini etiraf edib idealist sənət, "sənət sənət üçündür" mövqeyində duran qüvvələri təmsil edir. "Şair, şeir pərisi və Şəhərli" poeması ilə Səhhət öz ədəbi manifestini elan etmişdi, dövrün kəskin, mürəkkəb ədəbi mübarizələrində öz mövqeyini bildirmişdi. Səhhət poeziyasının ən yüksək bədii məhsulu olan bu poema həm də milli şeirimizin klassik nümunələri sırasına daxildir.

**II Aparıcı:** Başqa Azərbaycan romantikləri kimi, Səhhət də Birinci Dünya müharibəsini həyəcan və qəzəblə qarşılamışdı. Müharibə onun həyata baxışı ilə, humanizm ilə, insanlar arasında görmək istədiyi mehr-məhəbbət arzuları ilə təzad təşkil edirdi. Müharibə illəri Səhhət yaradıcılığının da məhsuldar dövrü olmuşdur. "Şair, Şeir pərisi və şəhərli" poemasından başqa bu illərdə şair "Bədbəxt ailə", "Qaragünlü Həlimə"

hekayələrini, “Təxliyə yaxud qaçqın”, “Şərarə” şeirlərini yazır, müharibənin nəticələrini təsvir edən publisist yazılarını nəşr etdirir. Hərbin fəlakətlərini təsvir edən əsərlərində insanları sülh şəraitində yaşamağa çağıran, Qardaşlıq ideyasını təbliğ edən şair, həm də məqsədə çatmaq üçün qüvvətli olmağın, zor işlətməyin zərurəti fikrini irəli sürür. Artıq burada romantik qəhrəman mübarizə yolunu ən doğru nicat yolu kimi qəbul edir.
**I Aparıcı:** Kökü real həyata bağlı olan satira mövzusu Abbas Səhhətin mübariz qələmi ilə daha yüksək mərhələyə qaldırıldı və mühitin eybəcərlikləri bu parlaq güzgüdə əks etdirildi. Səhhətin satirası əsarət, avamlıq və zülmü kəskin tənqid və ifşa etməkdə indi də öz əhəmiyyətini itirməmişdir. Sanki dövr bu ölməz sənətkarı ictimai çirkinlikləri ifşa etmək üçün yaratmışdı. Bəli, Abbas Səhhət parlaq bədii istedada malik söz sənətkarı kimi ədəbiyyatımızın tarixində özünəməxsus layiqli yeri vardır.
**II Aparıcı:** Abbas Səhhət dedikdə, yaşadığı dövrdə cəmiyyətdə, ictimai həyatda gözə dəyən nöqsanları, eyibləri tənqid edən satirik şairi yad etmiş oluruq. A.Səhhət dedikdə Azərbaycan uşaq ədəbiyyatı, xüsusilə uşaq poeziyası sahəsində qələm çalmış bir şair yada düşür. Və nəhayət, Abbas Səhhət dedikdə, Azərbaycan ədəbiyyatında təmsil janrını daha da yüksəldən, bu sahədə yaranan ənənələri davam etdirən, yeni bir məcraya yönəldən əvəzsiz bir sənətkar haqqında söz açmış oluruq. Azərbaycanda rus və Qərbi Avropa ədəbiyyatı nümunələrinin tərcüməsi və yayılması işində A.Səhhətin böyük mədəni xidməti olmuşdur. O, ədəbi fəaliyyətinin mühüm bir hissəsini tərcüməçiliyə həsr etmiş, bu sahədə fasiləsiz çalışmış, Azərbaycanda bədii tərcüməni həm elmi, professional, həm də bədii sənətkarlıq cəhətindən kamala çatdırmışdır.

**I Aparıcı:** Qabaqcıl ziyalıların mətanətli mübarizəsi nəticəsində 1905-ci ildən sonrakı mədəni canlanma zamanı başqa xalqların ədəbi irsi ilə daha artıq tanış olmaq ehtiyacı əmələ gəlmişdi. Bu ehtiyacı dərindən dərk edən şairlərdən biri də Səhhət idi. O, tərcüməyə ilham və ehtirasla yanaşır, tərcümə etdiyi əsərə yaradıcı münasibət bəsləyirdi. Təsadüfi deyil ki, hələ sağlığında onu rus mədəniyyəti tarixində mahir tərcüməçi kimi tanınan Jukovski ilə müqayisə edir və "İkinci Jukovski" adlandırırdılar.
**II Aparıcı:** Səhhət tərcümə işinə xalqlar arasındakı mədəni əlaqəni möhkəmlədən, ədəbiyyatın inkişafına kömək edən bir vasitə kimi baxırdı. Abbas Səhhət 1905-ci ildən başlayaraq bütün ədəbi yaradıcılığı boyu tərcümə işi ilə məşğul olmuş, rus, gürcü və Avropa xalqları ədəbiyyatından tərcümələr etmişdir. Onun tərcümələri əsasən "Məğrib günəşləri" adlı iki kitabda, İlk qiraət", "Yeni məktəb", "İkinci il", "Gülzar" kimi dərsliklərdə, "Dəbistan", "Məktəb" jurnallarında çap olunmuşdur. Abbas Səhhətin Krılov, Puşkin, Lermantov, Nadson, Qols-Miler, Koltsov, Nikitin, Qorki kimi rus klassiklərindən tərcümələri rus ədəbiyyatının ideya – bədii qüdrətini Azərbaycan oxucusuna eyni səviyyədə çatdıran gözəl nümunələrdir. A.Səhhət Qərbi Avropa şairlərindən V.Hüqo və İ.V.Gete, A.Müsse və M.Hartmandan da bir sıra tərcümələr etmişdir. A.Səhhətin tərcümələrinin ideya-bədii təsiri  çox qüvvətli idi. O, tərcümələri ilə bir tərəfdən doğma xalqını başqa xalqların ədəbiyyatı ilə tanış etmək məqsədini izləyirdisə, digər tərəfdən bu yolla Azərbaycan ədəbiyyatının öz inkişafına kömək göstərirdi.
**I Aparıcı:** Abbas Səhhət – mələk kimi nurani, almaz kimi sərt, ana təbiətin özü kimi fitri, təbii, səmimi şəxsiyyət idi. Səhhət – bu, Azərbaycan xalqına, Azərbaycan torpağına tükənməz məhəbbətin rəmzidir. O, xalq yaradıcılığının klassik janrlarında

işləyərək, xeyirxahlığı və ədaləti, gözəlliyi və məhəbbəti tərənnüm edərək, bununla da xalqın dəruni hisslərini ifadə edirdi. Şairin xidmət etdiyi həqiqət, ədalət, azadlıq, xeyirxahlıq, gözəllik duyğuları əbədidir.

**II Aparıcı:** Məhz buna görə indi də onun şeirləri ilhamla səslənərək, qədirbilən nəsillərin ürəklərində canlı əks - səda doğurur. Azərbaycan uşaq ədəbiyyatında sanballı əsərlər yaradan, nəcib və yüksək hisslərlə ömrünü başa vuran böyük sənətkarımız Abbas Səhhət özünün gözəl şeir, təmsil, əsərlərində, tərcümələrində, uşaqlarımızın sevə-sevə oxuduğu nəğmələrdə xalqımızın müqtədir şairi, ölməz klassiki kimi həmişə yaşayacaq.

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları Abbas Səhhətin yaradıcılığını işıqlandırmaq məqsədilə fundamental biblioqrafik vəsait tərtib ediblər. Ədibin ədəbi-ictimai fəaliyyətini tam şəkildə əks etdirən bu fundamental biblioqrafik göstərici 1904-2016-cı illərdə dərc olunan materialları əhatə edir. Bu biblioqrafik vəsait geniş oxucu kütləsi-tələbələr, tədqiqatçı-alimlər, bütün ədəbiyyat həvəskarları üçün nəzərdə tutulmuşdur.

## Ədəbiyyat siyahısı


***Əsərləri***

***Kitablar***

Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2013. - 376 s. : il. - (qalın cildli).

Seçilmiş əsərləri. - Bakı : Çaşıoğlu, 2006. - 336 s. : foto. - (Azərbaycan Ədəbiyyatı).

Seçilmiş əsərləri. - Bakı : Lider nəşriyyatı, 2005. - 456 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

Ayı və şir. - Bakı : Altun Kitab, 2009. - 12 s. - (Mənim ilk kitabım : 4-7 yaş).

Cücələrim : şeirlər. - Bakı : Gənclik, 2001. - 8 s. : rəngli şək.

Gün dağlara yayıldı : şeirlər. - Bakı : Turan Nəşrlər Evi, 2002. - 6 s.

Təmsillər, tərcümələr : Kiçik yaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün. - Bakı : CBS Polygraphic production, 2001. - 15 s. : rəngli şək.

Uşaq şeirləri : Kiçik yaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün. - Bakı : CBS Polygraphic production, 2001. - 11 s. : rəngli şək.

Yay səhəri : şeirlər, təmsillər, hekayələr, pyeslər. - Bakı : "TEAS PRESS" Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2018. - 164 s. : portr., il.

***Kitablarda***

Ana və oğul ; Cücələrim ; Qaranquş balalrı və b. şeirlər // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 clddə. – Bakı : Öndər, 2004. – C. 2. – S. 26-41.

Cərrahlıq ; Bədbəxt ailə ; Qaragünlü Həlimə : hekayələr // Azərbaycan nəsri antologiyası : 5 clddə : XX əsrin əvvəlləri. - Bakı : Şərq-Qərb, 2006. – C. 2. – S. 102-113. - (Müasir Azərbaycan ədəbiyyatı).

Getdinsə də, getməz ürəyimdən qəmi eşqin ; Ruhum, mələkim, sevdiciyim, nurlu süruşum : qəzəllər // Azərbaycan sevgi poeziyası : 3 cilddə. - Bakı : Xəzər Universiteti Nəşriyyatı, 2009. – Kitab 2. – S.7-8. - (cildli).

Yaz ; Ana və oğul ; Cücələr və b. şeirlər // Azərbaycan uşaq ədəbiyyatı antologiyası : 2 cilddə : Klassik və müasir uşaq poeziyası. - Bakı : Renessans, 2016. – C. 2. – S.40-70.

Yaz ; Yay səhəri ; Vətən və b. şeirlər // Məmmədova Ş. Azərbaycan uşaq ədəbiyyatı antologiyası : 3 cilddə : Folklor və klassik uşaq poeziyası. - Bakı : [s. n.], 2018. - C. 1. – S. 212-239.

***Elektron resurslar***

Seçilmiş əsərləri [Elektron resurs] : Poeziya / A. Səhhət, A. Şaiq ; məsl. L. Məmmədova [et al.] ; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : ağ-qara : portr., il. ; 12 sm. - (Nizami layihəsi). - (qutuda).

***Əsərləri dövri mətbuatda***

Nəğmə və musiqinin məktəblərdə əhəmiyyəti // Azərbaycan məktəbi. - 2015. - № 6. - S. 105-106. - Məqalə 1916-cı ildə yazılıb və Abbas Səhhətin "Seçilmiş əsərləri"nin II cildindən (1976-cı il nəşri) götürülmüşdür.

Nitqi-mənzum [1912-ci il] : şeir // Füyuzat. - 2015. - № 4. - S. 29.

Quşlar : Abbas Səhhət - 140 // Göyərçin. - 2014. - № 10.

Vətən : şeir : İstiqlal və İstiqbal şeirləri // Ədəbiyyat qəzeti. - 2018. - 26 may. - № 20. - S. 16-17.

*Haqqında*

**Abbas Səhhət** : Biblioqrafiya. - Bakı : Zərdabi-Nəşr MMC, 2017. - 224 s. - (Uşaq ədəbiyyatı xəzinəsindən). - (qalın cildli).

**Abbas Səhhət // Azərbaycan uşaq ədəbiyyatı** antologiyası : 2 cilddə : Klassik və müasir uşaq poeziyası. - Bakı : Renessans-A, 2016. – C. 2. – S.39.

**Ağayev M.** Abbas Səhhət : Fəlsəfi və sosial - siyasi görüşləri. - Bakı : Elm və Təhsil, 2010. - 88 s.

**Məmmədova Ş.** Abbas Səhhət (1874-1918) // Azərbaycan uşaq ədəbiyyatı antologiyası : 3 cilddə : Folklor və klassik uşaq poeziyası. - Bakı : [s. n.], 2018. – C. 1. – S. 209-212. - (Uşaq ədəbiyyatı).

*Dövri mətbuat*

**"Abbas Səhhət. Biblioqrafiya"** kitabı təqdim edilib // Kaspi. - 2017. - 1 iyul. - № 114. - S. 9.

**Azəri L.** "Abbas Səhhət. Biblioqrafiya" kitabının təqdimatı keçirildi // Mədəniyyət. - 2017. - 5 iyul. - № 51. - S. 5.

**Bayramoğlu A.** Şamaxı əğniyasından Sultan İsgəndərov cənablarına təşəkkür ; Şamaxıdan ; Abbas Səhhətin naməlum əsərləri // Ədəbiyyat qəzeti. - 2015. - 11 iyul. - № 44. - S. 19.

**Dünyaminqızı Q.** Şişə çəksəz də diriykən ətimi, Atmaram mən vətəni, millətimi... : Abbas Səhhət // Füyuzat. - 2015. - № 4.

**Əhmədalılar T.** Xalqın təbli həbibi və təbibi... : qəbri uzun müddət naməlum qalsa da, qədri hər vaxt bilinmiş Abbas Səhhət // Mədəniyyət. - 2015. - 10 iyul. - № 52. - S. 15.

**Əsgərli Z.** Vətən və hürriyyət nəğməkarı : Abbas Səhhət - 140 // Azərbaycan. - 2014. - 24 oktyabr. - № 231. - S. 10.

**Rüstəmli A.** Abbas Səhhətin naməlum şeirləri // Ədəbiyyat qəzeti. - 2015. - 5 sentyabr. - № 49. - S. 23.

# Xalqın həbibi və təbibi – Abbas Səhhət

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 13
Çapa imzalanmışdır: 01.03.2019
Tirajı:100
Pulsuz